بسم الله الرحمن الرحيم

Tbilisi- 2018

წიგნი დაბეჭდილია სსიპ სრულიად საქართველოს
მუსლიმთა სამმართველოს სამეცნიერო საბჭოს
ინიციატივით და რეკომენდაციით

Bu kitab Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftiliyinin elmi şurasının təşəbbüsü və məsləhəti ilə nəşr olunub.

---

სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველო
მადლობას უხდის საქართველოს ახალგაზრდობის
დახმარების და საგანმანათლებლო საზოგადოებას წიგნის
გამოცემის ნებართვისათვის

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatına təşəkkür edir.

---

**Kitabın orijinal adı:**
**Hak Dostlarından Hikmetler Bayazid-i Bistami**

**Müəllif:**
Osman Nuri TOPBAŞ

**Nəşrə Hazırlayan:**
Hacı BƏKİROĞLU

**Anadolu türkcəsindən**
**Azərbaycan türkcəsinə uyğunlaşdıran:**
Nurlan MƏMMƏDZADƏ

**Bədii redaktor:**
Əziz SULTANOV

**Dizayn:**
Elsevər ƏHMƏDOV

---

Esma Oniani st, Tbilisi, Georgia ,#23
Tel: (+995) 32 253 16 30
Mob: (+995) 577 62 30 31
ID: 401960794, Postal Code: 0159
E_mail: info.amag77@gmail.com

სამართლიანი მეგობრებისგან სიბრძნეები

HAQQ DOSTLARINDAN HİKMƏTLƏR

# ბეიაზიდ ბესტამი

ჰიქმეთულლაჰ ალეიჰი

# Bəyazid Bəstami

RƏHMƏTULLAHİ ALEYH


Osman Nuri TOPBAŞ

ოსმან ნური თოპბაში

# ÖN SÖZ

*Biz aciz bəndələrini lütf və kərəmi ilə yoxdan var edən, varlıqlar içərisində insan, insanlar arasında da Muhamməd ümmətindən qılan, İslam, iman və Quran nemətləri ilə şərəfləndirən Allah-Təalaya sonsuz həmd-sənalar olsun!*

*Bu dünyada istiqamət rəhbərimiz, qiyamətdə isə şəfaətçimiz olan Əziz Peyğəmbərimiz Həzrət Muhamməd Mustafaya, onun mübarək əhli-beytinə və əshabına sonsuz salətu-salam olsun!..*

Əbədi səadət yolunda ilahi həqiqətləri öyrənib həyatımıza tətbiq edə bilmək üçün vəhyin təbliğatına və peyğəmbərlərin rəhbərliyinə tabe olmaq zəruridir. Peyğəmbərlərin zahirən olmadığı zamanlarda isə onların mənəvi tərbiyə vəzifəsini istedad və iqtidarları nisbətində davam etdirən Haqq dostlarının irşadına könüldən bağlanmaq şərtdir.

Çünki Haqq dostları Həzrət Peyğəmbəri və əshabını görmək şərəfinə nail olmayanlar üçün nümunə sayılacaq böyük insanlardır. Onların rəhmət dili ilə qəlbləri əhya edən

irşad və nəsihətləri nəbəvi mənbədən süzülüb gələn ruhaniyyət şəbnəmlərinə bənzəyir.

Bir hədisi-şərifdə buyurulduğu kimi:

*"Alimlər peyğəmbərlərin varisləridir".* (Əbu Davud, Elm 1)

Burada qəsd olunan alimlər emlini irfana, yəni mərifətullaha yüksəlmək üçün pillə halına gətirə bilən arif insanlardır. Çünki onlar:

**"Allahdan Öz bəndələri içərisində ancaq alimlər** (layiqincə) **qorxarlar"** (əl-Fatir, 28) ayeyi-kərimənsinin əhatəsinə girərək Allah qorxusu ilə qəlbləri titrəyən, Haqqa yaxınlığın könül həssaslığı ilə təqva həyatı yaşayan müttəqi qullardır. Yəni Quran və Sünnədə "alim" sayılan kəslər Allahı tanıyan, Onu qəlbən dərk edən və sevib sevdirən qullardır. Bu vəsflərin hər biri isə Haqq dostlarının tərifidir.

Çünki Haqq dostları:

Dinin zahirini və batinini layiqincə birləşdirib öz şəxsiyyətlərinə nəqş etmiş, təqva yolunda qəlbən mərhələlər qət edərək mükəmməl davranışa və peyğəmbərə varis olma şərəfinə nail olmuş, idrak əhatələrini hər iki cahanın üfüqünə genişləndirərək iman ləzzətinə və duyğu dərinliyinə qovuş-

muş, bütün cəhdləri bəşəriyyəti pis hal və davranışlardan, nəfs və şeytanın tələlərindən qurtararaq fəzilət zirvələrinə yüksəltmək olan nümunəvi şəxsiyyətlərdir.

Bu səbəblə o könül sultanları – faydalana bilənlər üçün – böyük bir rəhmət vəsiləsidirlər.

Necə ki, **Süfyan bin Üyeynə həzrətləri** və bir çox böyük alim:

*"Salehlərin zikr olunduğu məclislərə rəhmət nazil olar"*, - buyurmuşdur.[1]

Çünki Haqq dostları anılarkən onların həyatlarındakı ibrətli qissələr və hikmətli xatirələr könülləri əhya edər. Onların nümunəvi hallarına qarşı rəğbət artar, ruhlar bu ülvi hallara meyl edər. Beləliklə rəhmət, bərəkət və səkinət təcəlli edər.

Allahın vəli qulları əsmayi-ilahiyyə təcəllilərinə kamil mənada məzhər olaraq cəmali sifətləri əxlaq halına gətirdikləri üçün daim ətrafdakılara Allahı xatırladarlar. Necə ki, əshabi-kiram:

- Allahın vəli qulları kimlərdir? – deyə soruşduqda Allah Rəsulu ﷺ:

1. Əbu Nuaym, Hiylə, VII, 285; Əhməd bin Hənbəl, əz-Zöhd, Beyrut 1420, s. 264; Acluni, Kəşful-Xafa, II, 70

- "(Allahın vəli qulları) üzlərinə baxanda Allah-Təalanı xatırladan kəslərdir", - buyurmuşdur. (Heysəmi, Məcməuz-Zəvaid, X, 78; İbn Macə, Zöhd 4)

Haqq dostlarının könül aləmləri nəfsin arzu və istəklərini kənarlaşdırmaq surəti ilə Haqqa təslimiyyətdə sanki ney halına gəlmişdir. Bu səbəblə onlardan duyduğumuz bütün sədalar ilahi nəfəsin feyzindən əks kimidir. Necə ki, ariflər də belə buyurmuşdur:

"Sən çıxarsan aradan, qalar səni Yaradan".

Yəni bir insan nəfsinin həva, həvəs və ehtiraslarını kənarlaşdırıb ruhani istedadlarını inkişaf etdirdiyi zaman Haqqa ram olar, ilahi əxlaqla əxlaqlanar, Allahın dostu olar. Bu hal eynilə Xəzərə töküldükdən sonra onda Kürdən heç bir əsər-əlamət qalmaması kimidir. Çünki o artıq Xəzərdə yox olmuşdur.

Bu cür kamil möminlərin fikirləri, düşüncələri, duymaları və ifadələri ilahi nurun cərəyanı halındadır. Onlar yalnız Allahın muradına müvafiq olan hal və davranış sərgiləyər, hər şeyə rəhmani nəzərlə baxarlar.

Təsəvvüfi deyimlə "fəna fillah" mərtəbəsinə yüksələrək Haqqın dostluğuna nail

olan bu möminlər haqda qüdsi hədisdə belə buyurulur:

*"...Qulum mənə ən çox ona əmr etdiyim fərzləri yerinə yetirərək yaxınlaşar. Fərzlərdən əlavə etdiyi nafilə ibadətlərlə də yaxınlaşmağa davam edər, nəhayət, mən onu sevərəm. Qulumu sevdiyim zaman sanki onun eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı olaram. Məndən nə istəyərsə, mütləq verərəm, mənə sığınarsa, onu qoruyaram".* (Buxari, Riqaq 38)

Haqq dostları eynilə nurunu günəşdən alan ay kimi ilahi və nəbəvi əxlaqın gözəlliklərini əks etdirən şəffaf güzgü kimidirlər. Ona görə də onların hal və hərəkətlərini qəlbi riqqət və məhəbbətlə seyr edənlər onların aləmində İslam əxlaqının və irfanının ən müstəsna təcəllilərini müşahidə edərlər. Haqq dostlarının irşad və nəsihətlərindən *nəsiblənmək* hər birimiz üçün böyük bir mənəvi qazanc yoludur.

**Rəbbimiz vəli qullarının könül iqlimindən qəlblərimizə hissə almağı nəsib etsin. Sevdiklərinin sevgisini ürəyimizdən əskik etməsin. Hər birimizi sevdiklərinin irşadı istiqamətində yaşatsın və sevgisi ilə həşr etsin.**

**Amin!..**

**Osman Nuri TOPBAŞ**

# Bəyazid Bəstami

RƏHMƏTULLAHİ ALEYH

# BƏYAZİD BƏSTAMİ (q.s) (777-848)

**Əbu Yezid Tayfur bin İsa** rahiməhullahu əleyh hicri 161-ci ildə (miladi 777) Bəstamda[2] dünyaya gəlmişdir. Atası İsa Əfəndi dindar və əməlisaleh biri idi. Anası da son dərəcə iffətli, əxlaqlı, həya sahibi, təvazökar, ibadət əhli əməlisaleh qadın idi. Çox dua edər və qəlbi Allah qorxusu ilə döyünərdi. Bütün şərtlərdə, həyatın acı-şirin sürprizləri qarşısında daim Allahın təqdirindən razı olaraq yaşayar, hər halında Xaliqin rizasını qazanmağa çalışardı.[3]

Bəyazid həzrətləri hələ dünyaya gəlmədən qeyri-adi hallar müşahidə edilmişdir. Nə zaman anası ağzına şübhəli loğma qoysa, bətnindəki körpə təpikləməyə başlayar, loğmanı ağzından çıxarana qədər də bu hərəkətə davam edərdi.[4]

Bəyazid Bəstami həzrətlərinin Cəfər Sadiq həzrətlərinin nəvəsi İmam Əli Rza ra-

2. Bəstam İranın Tehran ilə Məşhəd şəhəri arasında, Tehrandan 410 km şərqdə, Şahrud şəhərinin 6 km şimalında təpəlik ərazidə salınmış bir qəsəbədir.
3. Səhləgi, ən-Nur, s. 63
4. Əttar, *Təzkirə*, s. 171; Hani, *Hədaiq*, s. 324

himəhullahi əleyhdən bəhrələndiyi nəql edilir.[5]

Bəyazid Bəstami həzrətləri ilahi məhəbbət dəryasına dalmış Haqq aşiqi idi. Bədənini daim mücahidə, qəlbi isə müşahidə halında idi. Təsəvvüf yolunun dərin və incə mənalarına vaqif idi.[6] Bu səbəblə ona **Sultanul-arifin** (ariflər sultanı), **Seyyidi-arifan, Piri-Bəstam** kimi adlarla tanındı. Sonrakı dövrlərdə hər hansı bir vəlini mədh etmək üçün "Əsrin Bəyazidi" ifadəsindən istifadə olunması da onun mənəvi mərtəbəsinin nə qədər uca olduğunu göstərir.

Bəziləri onun tövhid və həqiqət elmlərinə dair sözlərini anlaya bilmədikləri üçün müəyyən ittihamlar irəli sürmüş, ona bir sıra yanlış ifadələr izafə etmişlər. Bu kimi ittihamlara əhəmiyyət verilməməlidir.[7]

## Gəncliyi

Bəyazid rahiməhullahi əleyh hələ uşaq yaşda ikən böyük Allah dostu olacağının nişanələrini daşıyırdı. Hər bir hal və hərəkəti ölçülü, sözləri hikmətli, baxışı dərin və mənalı, üzü isə nurlu idi.

5. Nəcməddin bin Muhamməd, *Xuləsatul-Məvahib*, s. 109; Kövsəri, İrğamul-Mərid, s. 31
6. Əttar, *Təzkirə*, s. 171
7. Hani, *Hədaiq*, s. 311-312

O dövrün məşhur təsəvvüfçülərindən Şəqiq Bəlxi həzrətləri həccə gedərkən Bəstamdan keçmiş, bir məscidin yanında oynayan uşaqlar arasındakı Bəyazidi fərq etmişdi. Şəqiq həmin məsciddə vəz edərkən Bəyazid uşaq olmasına baxmayaraq ədəblə gəlib ona qulaq asmağa başladı. Bəyazidin bu halı Şəqiqin diqqətindən qaçmadı və fərasət göstərərək:

"Bu uşaq gələcəkdə mənəviyyat ərlərindən bir igid olacaq", - buyurdu.[8]

Bəyazid Bəstami həzrətləri kiçik yaşda Qurani-Kərim oxuyurdu. **"Ey (libasına) örtünüb bürünən! Gecəni – az bir hissəsi istisna olmaqla – qalxıb namaz qıl!"**[9] ayeyi-kərimәsinə çatanda atasından soruşdu:

- Atacan, Haqq-Təala burada kimə xitab edir? O da:

- Övladım, Allah-Təala burada Rəsulullahı ﷺ qəsd edir. Rəbbimiz sonra Taha surəsində bu hökmü yüngülləşdirdi, - dedi.

Bəyazid oxumağa davam edərək "(Ya Peyğəmbər!) Həqiqətən, Rəbbin bilir ki, sən qalxıb bəzən gecənin təqribən üçdə ikisini,

8. Səhləgi, *e.a.ə.*, s. 123
9. əl-Muzzəmmil, 1-2

bəzən yarısını, bəzən də üçdə birini namaz qılırsan. **Səninlə birlikdə olan bir zümrə** də belədir. Gecəni də, gündüzü də ölçüb-biçən ancaq Allahdır…"[10] ayeyi-kəriməsinə çatdı.

- Atacan, mən gecə ibadətə qalxan bir zümrədən bəhs olunduğunu eşidirəm, - dedi. Atası:

- Bəli, oğlum, onlar Rəsulullahın ﷺ əshaabıdır, - dedi. Bu zaman Bəyazid rahiməhullahi əleyh:

- Atacan, Rəsulullahın ﷺ və əshabının etdiyi bir əməli tərk etməkdə nə xeyir ola bilər? – dedi.

Həmin gündən sonra atası gecələrini ibadətlə keçirməyə başladı.

Bir gecə Bəyazid rahiməhullahi əleyh oyanıb:

- Atacan, mənə də namaz qılmağı öyrət ki, səninlə birlikdə namaz qılım, - dedi.

Atası:

- Yat, sən hələ balacasan, - cavabını verdi.

Bəyazid rahiməhullahu ələyh belə dedi:

- Atacan, qiyamət günü insanlar əməllərini görmək üçün məzarlarından çıxıb

10. əl-Muzzəmmil, 20

qrup-qrup Allahın hüzuruna çıxdıqları zaman[11] Rəbbim məndən:

- Dünya həyatında nə işlədin, ey qulum? – deyə soruşanda mən:

- Ey Rəbbim, atama "mənə namazı öyrət, səninlə birlikdə namaz qılım", - dedim. O isə mənə "yat, sən hələ balacasan, - dedi", - deyəcəyəm.

Bu zaman atası:

- Xeyr, vallahi, belə söyləməyini istəmərəm, - dedi və oğluna namazı öyrətdi. Bu hadisədən sonra Bəyazid rahiməhullahi əleyh də uşaq yaşda olmasına baxmayaraq hər gecə qalxıb təhəccüd namazı qıldı.[12]

Anası onu məktəbə göndərmişdi. **"Mənə və ata-anana şükür et"** (Loğman, 14) ayeyi-kərimısini oxuyanda Bəyazid rahiməhullahi əleyh ustadından bu ayənin izahını soruşdu. Ayənin təfsiri onu dərindən sarsıtdı. Dəftər-qələmi qoyub izin aldı və evə yollandı. Özünü anasının qollarına atdı. Həm ağlayır, həm də:

- Nə olar, anacan! – deyə yalvarırdı. Anası təəccüblə nə baş verdiyini soruşdu. Bəyazid rahiməhullahi əleyh belə dedi:

11. Bax. əz-Zilzal, 6
12. Səfiri, əl-Məcalisul-Vaziyyə, II, 293

- Heç nə olmayıb, anacan! Bu gün bir ayeyi-kərimə eşitdim. Allah-Təala o ayədə həm özünə, həm də sənə xidmət etməyimi istəyir. Çox təsirləndim. Mən iki evdə necə xidmətçilik edə bilərəm? Buna gücüm çatarmı? Birdən layiqli xidmət edə bilməsəm, onda necə?

Anacan, Allaha dua et, bütün zamanımı sənə xidmətə həsr edim, ya da məni Uca Rəbbimə bağışla, daim ona ibadət edim!

Oğlunun bu halına çox sevinən anası belə dedi:

"Övladım, daim xidmətində durasan deyə səni Allaha qurban etdim və öz haqqımı halal etdim".[13]

Bir gün hədis alimlərindən biri azyaşlı Bəyazidi görüb onun halından məmnun qaldı. Zəka və anlayışını ölçmək üçün soruşdu:

- Ey gözəl uşaq, tam mənası ilə namaz qıla bilirsənmi?

Bəyazid də ona:

- Bəli, Allahın dilədiyi qədər qıla bilirəm, - dedi.

- Necə?

13. Əttar, *Təzkirə*, s. 172

- "Buyur, ya Rəbb, əmrini yerinə yetirmək üçün hüzuruna durdum" hissi ilə təkbir gətirib Allahu Əkbər deyirəm. Qurani-Kərimi üsuluna və qaydalarına uyğun şəkildə dənə-dənə oxuyur, təzim ilə rüku edirəm. Təvazö duyğusu ilə səcdə edir, vidalaşaraq salam verirəm, - dedi.

Sualı verən alim heyran qalaraq soruşdu:

- Ey zəkalı uşaq, sən bu dərin anlayışa sahib ola-ola insanların gəlib başını sığallamalarına nə üçün izin verirsən?

Çünki o, bu təqdir və iltifatların Bəyazidin nəfsini təkəbbürə sövq edə biləcəyini və onun buna izin verməməli olduğunu fikirləşirdi.

Gənc Bəyazid isə ariflərə yaraşan bu cavabı verdi:

- Onlar əslində mənim başımı deyil, Allah-Təalanın məni bəzədiyi o gözəlliyi məsh edirlər. Mənə aid olmayan bir şeyə toxunmalarına necə mane ola bilərəm?[14]

Qəlbin sahib olacağı qulluq ədəblərindən biri də bu misaldakı kimi bütün gözəllikləri Allahdan bilmək, onu əsla nəfsinə izafə etməməkdir.

---

14. Səhləgi, *e.a.ə,* s. 99

## Sünneyi-Səniyyəyə Bağlılığı

Haqqa vasil olma yolunda məsafə qət edə bilmək yalnız Qurani-Kərimin hökmlərinə itaət etməyə, Rəsulullahın ﷺ Sünneyi-Səniyyəsinə riayət etməyə və Allah dostlarının nümunəvi hal, əxlaq və davranışlarına həssaslıqla tabe olmağa bağlıdır. Bəyazid Bəstami həzrətləri də bütün Haqq dostları kimi şövqlə Sünneyi-Səniyyəyə bağlanmağa çalışardı. Ondan zərrə qədər də olsa ayrılmazdı.

Bir gün müridləri ilə birlikdə vəli kimi məşhurlaşmış bir nəfəri görməyə getmişdi. Həmin şəxs evindən çıxıb məscidə gedərkən qiblə istiqamətinə tüpürdü. Bəyazid həzrətləri onun laqeyd və xam halı qarşısında çox pis oldu, heç salam da vermədən geri qayıtdı. Tələbələrinə isə belə dedi:

- Bu adama Rəsulullahın ﷺ öyrətdiyi ədəblərdən birinə riayət xüsusunda belə güvənmək olmaz. Xaliqin sirləri xüsusunda ona necə güvənmək olar?![15]

Bəyazid rahiməhullahi əleyh hər halını Rəsulullahın ﷺ halı ilə götür-qoy edərdi. Allah Rəsulu ﷺ onun üçün nümunə idi.

15. Quşeyti, *Risalə*, s. 57, 416-417

Söylədiyi bu sözləri onun Sünneyi-Səniyyəyə nə qədər bağlı olduğunu göstərməyə kifayətdir:

"Allah-Təalanın məni yeyib-içmək və zövcəyə olan ehtiyacımdan xilas etməsini istəməyi düşündüm. Sonra öz-özümə:

"Allahdan belə bir şey istəmək mənim üçün necə caiz ola bilər? Rəsulullah ﷺ belə bir şey istəməyib", - dedim və bu fikrimdən daşındım".[16]

## Nəfslə Mücahidəsi

Bəyazid Bəstami həzrətləri mənəvi həyatının mərhələlərini təmsil yolu ilə belə dilə gətirir:

"On iki il nəfsimin dəmirçisi oldum. Onu riyazət körüyünə qoyub mücahidə alovu ilə qızdırdım. Qınaq zindanına qoyub məlamət və məhviyyət çəkici ilə döydüm. Sonra beş il nəfsimin güzgüsü oldum. Yəni onu müraqibə altına aldım. Müxtəlif ibadət və itaətlə güzgünü cilaladım. Sonra bir il ibrət gözü ilə baxdım və ruhumda qürurdan, ibadətlərimə güvənməkdən, əməlimi bəyənməkdən meydana gələn böyük bir bəlanın olduğunu gördüm. Bu müsibəti kəsib atmaq üçün beş il də çalışdım və nəhayət, imanım kamala

16. Quşeyri, *e.a.ə.*, s. 57; Münavi, *Feyzul-Qadir*, VI, 108

çatdı, İslamın o ruhani zövqünü yenidən daddım".[17]

Yenə Bəyazid rahiməhullahi əleyh belə buyurur:

"Hər xəstəliyi müalicə etdim, ancaq nəfsimi müalicə qədər çətin bir şey görmədim. Halbuki mənə nəfsimdən daha dəyərsiz və asan görünən heç nə yox idi".[18]

Xülasə, Haqq-Təalaya vasil ola bilmək üçün nəfsin arzularından qurtulmaq və mənliyin dik yoxuşlarını aşmaq zəruridir. Çünki bir möminin nəfsaniyyət və eqoizm təzahürü olan qürur, təkəbbür, ehtiras, qəzəb kimi bütün mənəvi fəlakətlərdən özünü qoruya bilməsi yalnız öz əslinin "yoxluq və heçlik" olduğunu layiqincə idrak etməsinə bağlıdır. Bu yüksək könül zirvəsinə ucalanlar üçün çilə və iztirablar qarşısında nəfsin üsyankar fəryadlarını susdura bilmək və həmin imtahan təcəllilərinin hikmətinə vaqif olmaq hədsiz dərəcə asandır.

Bəyazid Bəstami həzrətləri bir gün küçədən keçərkən səhvən üstünə kül tökül-

17. Əttar, *Təzkirə*, s. 174; *Səhləgi, e.a.ə.*, s. 97
18. Əbu Nuaym, *Hilyə*, X, 36

müşdü. Üst-başı bulaşan Bəyazid həzrətləri azacıq da olsa hirslənmədi. Əksinə, Allaha şükür edib əlləri ilə üzünü sildi. Sonra da bu hadisəni hikmət və ibrət nəzəri ilə dəyərləndirərək belə dedi:

"Əslində mən oda layiqəm, amma Allah lütfü ilə məni bağışlayıb üstümə od əvəzinə kül tökdürdü və mənə mənəvi xəbərdarlıq etdi. Burada nə kədərlənəcək, nə də hirslənəcək bir şey var!"[19]

## Allah Qorxusu və Təqva Həyatı

Bəyazid rahiməhullahi əleyh Allah-Təalanı zikr edərkən böyük bir vəcd və istiğraq (qərq olma) halı yaşayardı. Namaz qılarkən sanki sümüklərinin şaqqıltısı eşidilərdi. Bu hal onun Allaha-Təalaya qarşı duyduğu qorxu və ilahi əmrlərə bağlılığın nişanəsi idi.[20]

Yalnız qalanda da Allah-Təalanın hüzurunda olduğunu düşünərək daim dizi üstə oturardı.[21] Belə buyurardı:

"Otuz ildir ki, hər namazda özümü nəfsani arzularından qurtulmamış bir zavallı kimi hiss edirəm".[22]

19. Sədi, *Bostan*, Tehran 1368, s. 183
20. Cami, *Nəfəxat*, s. 183
21. Hani, *Hədaiq*, s. 325
22. Quşeyri, *e.a.ə.*, s. 58

Bir gün Bəyazid Bəstami həzrətləri məscidə gedirdi. Yağış yağmış, yollar palçıq olmuşdu. Ayağı sürüşdü, yıxılmamaq üçün yaxınlıqdakı divardan yapışdı. Bu əsnada divarı kirlətdi. Sonra öz-özünə fikirləşdi ki, namazın vaxtına hələ var. Əvvəlcə divarın sahibini tapıb halallıq alsa yaxşı olar. Gedib divarın sahibini tapdı. Sən demə divarın sahibi məcusi imiş. Baş verənləri ona danışıb halallıq istədi. Məcusi heyrətlə soruşdu:

- Həqiqətən də dininiz bu qədər diqqətli və ehtiyatlı davranmağı əmr edir?

- Bəli, - cavabını aldı.

- Elə isə Mən də Allaha və Rəsulu Muhamməd Mustafaya ﷺ iman gətirdim, - dedi.

Bəyazid Bəstami həzrətlərinin bu gözəl hərəkətinin bərəkəti ilə o evdəkilərin hamısı müsəlman oldu.[23]

Bəyazid Bəstami həzrətləri məscid və təkyələrin divarı xaricində heç bir divara söykənməzdi. Belə deyərdi:

"Allah-Təala hər bir zərrənin hesabını soruşacaq. Bu (divara söykənmək isə) zərrədən daha böyük bir haqdır!"[24]

23. Səhləgi, *e.a.ə.*, s. 93-94; Hani, *Hədaiq*, s. 334
24. Əttar, *Təzkirə*, s. 176

Bayram günləri xaricində Bəyazid həzrətlərini orucsuz görən olmazdı. O, bu halda ikən Allaha qovuşmuşdur. Onun buna bənzər bir çox fəzilət nümunələri əsərlərdə nəql edilmişdir.[25]

## Zöhd Həyatı

Bəyazid Bəstami həzrətlərinə görə zahid heç bir mal-mülkə sahib olmayan deyildir. Əsl zahid malını, mülkünü özünə aid bilməyən, əslində heç nəyə sahib olmadığının şüurunda yaşayan və qəlbini fani varlıqların əsirinə çevirməyən kəsdir.[26]

Çünki halal qazancı ilə sərvət sahibi olan mömin də Haqq qatında məqbul bir quldur. Belə bəndələr daim “mülk Allahındır, hər şey Rəbbimizə aiddir, biz yalnız əmanətçiyik” düşüncəsində olub, sahib olduqları hər şeydən Allah yolunda infaq edərlər. Fani dünyanın aldadıcı oyuncaqlarına könül qapdırmaz, qəlblərini dünya sərvətinin xəzinəsi olmaqdan hifz edərlər.

Bu ifadələr Bəyazid Bəstami həzrətlərinin dünyaya baxış tərzini necə də gözəl xülasə edir:

25. Sarrac, *Luma*, s. 385
26. Bax. Əbu Talib Məkki, *Qutul*-Qulub, I, 447

"Dünya ona könül verənlər üçün aldanış içində aldanışdır. Axirət əhli üçün isə səadət içində səadətdir. Allaha məhəbbət isə nurə dan bir səadət və nur üstünə nurdur".[27]

Həqiqi zöhdə üç fəsildə nail olduğunu ifadə edən Bəyazid həzrətləri "Birinci fəsildə dünya və içindəkilərə, ikinci fəsildə axirət və içindəkilərə, üçüncü fəsildə isə Allahdan başqa hər şeyə qarşı zahid oldum, onları qəlbimdən çıxardım", - buyurur.[28]

Həmçinin bu xüsusda belə buyurmuşdur:

"İlk dəfə həccə gedəndə yalnız Kəbəni gördüm. İkinci gedişimdə həm Kəbəni, həm də Kəbənin Rəbbini gördüm. Üçüncü gedişimdə isə sadəcə Kəbənin Rəbbini gördüm".[29]

## Xaliqin Nəzəri ilə Məxluqata Baxış Tərzi

Bir nəfər Bəyazid Bəstami həzrətlərinin yanına gəlib soruşdu:

- Bu məqamı nə ilə qazandın? Həzrət bu hikmətli cavabı verdi:

- "Bu məqam iddiasından əl çək. Lakin Haqq-Təala mənə səkkiz şeyi lütf etdi:

27. Səhləgi, *e.a.ə.*, s. 124; Hani, *Hədaiq*, s. 322
28. Quşeyri, *e.a.ə.*, s. 58
29. Hücviri, *Kəşful-Məhcub*, s. 319

1) Özümü geridə, insanları isə məndən irəlidə gördüm. (Təvazökarlıq)

2) Onun qullarına olan şəfqətim səbəbi ilə hamısının yerinə cəhənnəmdə yanmağa razı oldum. (Hədsiz şəfqət)

3) Həyatdakı hədəfim daim bir möminin qəlbini rahatlatmaq oldu. (Qayğıkeşlik, isar, din qardaşını özündən üstün tutma)

4) Bu gündən sabaha heç nə saxlamadım. (İnfaq, səxavət və təvəkkül)

5) Allah-Təalanın rəhmətini özümdən çox insanlar üçün istədim. (Allahın **Rəhman** sifətinin qulundakı ən zirvə təcəllisi)

6) Möminləri sevindirmək və qəlblərindəki kədəri dağıtmaq üçün var-gücümlə çalışdım. (Yalnızların, kimsəsizlərin və dərdlilərin yanında olmaq)

7) Şəfqətim səbəbi ilə qarşılaşdığım möminlərə əvvəlcə mən salam verdim. (Salam din qardaşına dua etmək, onun üçün xeyir diləmək, könül almaq və məhəbbətə səbəbdir)

8) Öz-özümə "Əgər Allah-Təala qiyamət günü məni əfv edib şəfaət haqqı verərsə, əvvəlcə mənə əza və cəfa edənlərə, sonra

yaxşılıq edənlərə şəfaət edəcəyəm", - deyə qərar verdim".[30]

Eynilə **Həllac Mənsur** da onu daşlayanlar üçün:

"Ya Rəbb, onlar həqiqəti bilmirlər, məndən əvvəl onları əvf et!" – deyə dua etmişdir.

Bəyazid Bəstami həzrətlərinin Yaradandan ötrü yaradılanlara şəfqət və mərhəməti o qədər geniş və dərin idi ki, məxəluqatın çəkdiyi iztirabı öz iztirabı bilərdi. Bir gün döyülərək pis hala salınmış bir uzunqulaq gördü. Yazıq heyvan al-qan içində yerə sərilmişdi. O qədər kədərləndi ki, onun da böyürlərindən aşağı doğru qan sızmağa başladı".[31]

Heç şübhəsiz ki, bu hal Xaliqin şəfqət nəzəri ilə məxluqata baxış tərzinin zirvə nöqtəsidir.

Sultanul-arifin Bəyazid Bəstami həzrətləri bir dəfə səyahət əsnasında bir ağacın altında dayanıb yemək yemişdi. Sonra yoluna davam etdi. Xeyli məsafə qət etdikdən sonra heybəsində bir qarışqa gördü və: "Allahın bu

30. Səhləgi, *e.a.ə.*, s. 88-89; Abbas, Əbu Yezid, s. 97
31. Əli bin Hüseyn Safi, *Rəşahatı-Aynul-Həyat*, s. 97

məxluqunu vətənindən didərgin saldım", - deyərək geri qayıtdı, qarışqanı əvvəlki yerinə buraxdı.[32]

## Əsil Kəramət İstiqamətdir

Qulluq həyatında mühüm olan kəramətə nail olmaq deyil, Kərim olan Allaha vasil olmaqdır. Bu səbəblə Allah dostları fiziki kəramətlərə əhəmiyyət verməmiş, onlara ilişib qalmağı xoş görməmiş, bütün himmət və səylərini əsil kəramət olan "istiqaməti mühafizə" üzərində səfərbər etmişlər.

Bəyazid Bəstami həzrətlərinin belə dediyi nəql olunur:

"Bir gün Dəclə çayının qarşı sahilinə keçəcəkdim. Çayın hər iki sahili mənə yol vermək üçün birləşdi. Tez özümü yığışdırıb Dəcləyə belə dedim:

"And olsun ki, buna aldanmaram. Qayıqçılar adamı yarım axçaya qarşıya keçirirlər. (Amma sən otuz ildən bəri Allah üçün etdiyim saleh əməllərimi istəyirsən.) Elə isə yarım axça üçün otuz illik ömrümü zay edə bilmərəm. Mənə Kərim lazımdır, kəramət yox!"[33]

32. Bax. Quşeyri, *e.a.ə.,* s. 229; Sədi, *Bostan,* s. 78
33. Əttar, *Təzkirə,* s. 186

## Mərifətullah

Ariflər sultanı Bəyazid Bəstami həzrətlərindən:

- Arifin əlaməti nədir? – deyə soruşdular.

- Allah-Təalanın zikrinə ara verməməsi,[34] Onun haqqını yerinə yetirməkdən yorulmaması və Ondan başqası ilə ünsiyyət qurmamasıdır, - cavabını verdi.[35]

Ona görə arif yuxusunda da Allah-Təala ilə bərabərdir, daim ilahi rizanı qazanmağa çalışır. Masiva ilə məşğul olmaz, Allahdan başqasını axtarmaz.[36]

Bəyazid Bəstami həzrətləri Haqqa vüslət yolunun uzun, enişli-yoxuşlu olduğunu və Ona vasil olmağın asan olmadığını hər fürsətdə dilə gətirərdi. Haqqa qovuşduğunu zənn edənlərin əslində yolun başında olduqlarını deyər və özü haqqında "Saysız-hesabsız məqamı geridə qoyduqdan sonra hələ də işin başında olduğumu, həqiqətə çatmadığımı gördüm", - deyə buyurardı.[37]

34. Çünki Ali-İmran surəsinin 191-ci ayəsində bəyan edildiyi kimi Haqq-Təala möminlərin ayaq üstə, oturarkən, böyrü üstə yatarkən, yəni hər halda zikr halında olmalarını murad edir.
35. Beyhəqi, Şuab, II, 187
36. Quşeyri, *e.a.ə.*, s. 481
37. Əttar, *Təzkirə*, s. 193

## Məhəbbətullah

Bəyazid Bəstami həzrətləri ilahi məhəbbət dəryasına dalmış böyük Haqq aşiqi idi. Bir dəfə **Yəhya bin Muaz** ona məktub yazıb: "Burada biri var, məhəbbət dəryasından bir kasa içdi, ondan sonra bir daha susamadı", - demişdi. O Haqq aşiqi isə Yəhya bin Muaza bu cavabı yazdı: "Halının zəifliyinə təəccüb etdim! Burada biri var, kainatın bütün dənizlərini içdiyi halda hələ də "Aman, su! Yoxdur daha?" - deyir".[38]

Bəzi insanlar var ki, mərifətullah yolundakı susuzluğu bir kasa su ilə gedər, bəziləri də var ki, bu yolda dəryaları içsə də, susuzdur. Bu hal insanın mənəvi qabiliyyətini göstərir.

Bəyazid Bəstami Həzrətləri bir gün:

"Bütün insanlar hesabdan qaçırlar, mən isə Haqq-Təaladan məni hesaba çəkməsini istəyirəm", - dedi. Ondan bunun səbəbini soruşanda bu möhtəşəm cavabı verdi:

"Bəlkə Allah-Təala hesab əsnasında mənə "Ey qulum" deyə xitab edər, mən də "Buyur, ey Rəbbim" deyərəm. Onun mənə "Ey Qulum" buyurması mənim üçün dünya

38. Quşeyri, *e.a.ə.,* s. 179, 491; İmam Şarani, ət-Tabaqatul-Kübra, I, 65

və içindəkilərdən daha sevimlidir. Ondan sonra mənə istədiyini etsin".[39]

Bəyazid Bəstami həzrətləri Haqq aşiqlərinin halını belə tərif edərdi:

"Allah-Təalanın bəzi seçilmiş qulları var ki, əgər onları cənnətdə camalından bir az məhrum etsə, cəhənnəmliklərin əzabdan qurtulmaq üçün yalvardıqları kimi onlar da bu məhrumiyyətdən qurtulmaq üçün yalvararlar".[40]

## On Əsas

Bəyazid Bəstami həzrətləri belə buyurmuşdur:

**Bu on əsas hər bir möminin vəzifəsidir:**

1) Fərzləri əda, nafilələrə cəhd etmək.

2) Haram və şübhəlilərdən uzaqlaşmaq.

3) Allah üçün təvazökarlıq göstərmək.

4) Din qardaşlarına yük olmamaq, onlara yar olmaq.

39. İbn Mulaqqin, *Tabaqatul-Övliya*, Qahirə 1415, s. 399-400
40. Əbu Nuaym, *Hilyə*, X, 34; Quşeyri, *e.a.ə.*, s. 499

5) Yaxşı-pis hər kəsə qarşı dürüst olmaq, nəsihət etmək. (Gözəl İslam xarakteri sərgiləmək)

6) Allah-Təaladan özü və ümməti-Muhamməd üçün məğfirət istəmək.

7) Hər xüsusda Allah-Təalanın rizasını istəmək. (Haqq-Təaladan niyyət və əməllərimizi rizası ilə bütünləşdirməsini niyaz etmək)

8) Qəzəbi, təkəbbür və hədsizliyi tərk etmək.

9) Mübahisə və kobudluğu tərk edib, nəzakətli və zərif mömin olmaq.

10) Öz-özünə "Ölümə hazırlaş", - deyə nəsihət etmək.

**Bu on əsas da insanı qoruyan bir qaladır:**

1) Gözləri mühafizə etmək. (Çünki qiyamət günü gözlərin nə qədər xeyir, nə qədər şər gördüyü açıq şəkildə ortaya qoyulacaq. Allah-Təala buyurur:

**"Nəhayət, onlar Cəhənnəmə gəldikdə qulaqları, gözləri və dəriləri etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir".** (əl-Fussilət, 20)

2) Dili zikrə alışdırmaq.

3) Nəfsi hesaba çəkmək.

4) Elmlə əməl etmək, bilərək yerinə yetirmək, mərifətullahdan nəsib almaq.

5) Bədəni lüzumsuz dünya məşğuliyyətlərindən uzaq tutmaq.

7) Bəzən tənha qalıb ilahi əzəmət və qüdrət təcəllilərinin təfəkküründə dərinləşmək.

8) Nəfs mücahidəsi ilə məşğul olmaq.

9) İbadəti və Allah yolunda cəhdi artırəmaq.

10) Hər zaman və məkanda Sünneyi-Səniyyəyə tabe olmaq…[41]

## Vəfatı

Bəyazid Bəstami həzrətləri hicri 234, miladi 848-ci ildə vəfat etdi. Həyatı boyu olduğu kimi son nəfəsində də Allahı zikr edirdi. Sonra:

"Ya Rəbb, həmişə səni qəflətlə zikr etdim, indi canım əldən gedir. İbadət və itaətim hər zaman qəflət içində oldu. Hüzurun nə zaman olacağını da bilmirəm", - dedi. Sonra da zikr edə-edə ruhunu təslim etdi.[42]

İranın **Bəstam** qəsəbəsində sadə və mütəvazi bir türbəsi, müxtəlif yerlərdə də məqamı var.

41. Səhləgi, *e.a.ə.*, s. 133-134.
42. Səhləgi, *e.a.ə.*, s. 133-134.

HAQQ DOSTLARINDAN HİKMƏTLƏR

# Bəyazid Bəstami

RƏHMƏTULLAHİ ALEYH

1

*Haqq dostları belə buyurmuşlar:*

*"İbadət insanı cənnətə aparır. İbadətdə ədəb və təzim isə qulu Allaha aparır, Haqqa yaxınlaşdırır".*

# Bəyazid Bəstami (q.s) -1-

**Bəyazid Bəstami həzrətləri buyurur:**

***“O kəs bəxtəvərdir ki, yalnız bir təlaşı var (yəni daim bir olan Allahı zikr halındadır). Gözünə sataşan, qulağı ilə eşitdiyi lüzumsuz şeylərlə qəlbini məşğul etməz. Kim mərifətullah sirrinə agah olarsa, özünü Allahdan uzaqlaşdıran hər şeydən üz çevirər”.***[43]

Ayeyi-kərimədə buyurulur:

**“O kəslər ki, lağlağıdan** (lüzumsuz şeylərdən, qadağan olunmuş əməllərdən) **üz döndərərlər”** (əl-Muminun, 3).

Hədisi-şərifdə də belə buyurulmuşdur:

*“İnsanın lüzumsuz şeyləri tərk etməsi onun yaxşı bir müsəlman olmasındandır”.* (Tirmizi, Zöhd, 11; İbn Macə, Fitən, 12)

Qəlbi masivadan, yəni Allahdan uzaqlaşdıran hər şeydən təmizləyərək, daima Haqqa yönəlmək mərifətullaha nail olan möminlərin vəsfidir. Dünyaya gəlmə səbəbimiz də

43. Səhləgi, *ən-Nur*, səh. 170; Abbas, *Əbu Yezid,* səh. 73.

Haqqa qulluq və mərifətullah, yəni Haqq-Təalanı qəlbən tanıya bilməkdir. Buna nail olan mömінin qəlbi Allah-Təalanın əzəmət, qüdrət və sonsuz nemətlərinin təfəkkürü içində daim **zikr, fikir** və şükür halını mühafizə edər.

Mənəvi tərbiyənin ən mühüm qayələrindən biri də **"əl karda, könül Yarda"** düsturunu qazanmaqdır. Bu düstur isə sadəcə ibadət əsnasında deyil, dünya ilə məşğuliyyətdə belə qəlbi Allaha verə bilmək və həyatın heç bir mərhələsində Ondan qafil qalmamaqdır. Beləliklə də daimi zikr halına qovuşa bilməkdir.

Bu hal qəlbi daima ilahi riza istiqamətində saxlayan və günahlara meyl etməkdən qoruyan, mənəvi zirəklik, fərasət və bəsirət nuru əldə etməyə vəsilədir. Ayeyi-kərimədə buyurulur:

**"Allahı unutduqları üçün Allahın da onları özlərinə unutdurduğu** (xeyirlərini başa düşməyən) **kimsələrə bənzəməyin! Onlar** (Allahın itaətindən çıxmış) **fasiqlərdir!"** (əl-Həşr, 19)

İnsan Allahdan qafil qaldığı zaman günah işləyir. Heç kim bismillah deyərək qardaşına zərər verməz. Qəlbi "Allah" deyən bir

adam qəlblərə tikan batıra bilməz, bilərəkdən qul haqqına girməz, haramlara dalmaz.

**Bəyazid Bəstami həzrətləri** də istiqamət halını saysız kəramətdən üstün görmüşdür. Necə ki, bir gün ona:

"- Sizin su üstündə yeridiyinizi söyləyirlər",- dedilər. Həzrət isə:

"- Hər hansı bir çöp də suyun üstündə üzür",- cavabını verdi.

" Havada uçursunuz",- dedilər.

"- Quş da havada uçur",- buyurdu.

"- Bir gecədə Kəbəyə gedirsiniz",- dedilər.

"- Hər hansı bir cin, yaxud şeytan da bir gecədə Hindistandan Dəmavəndə gedir",- buyurdu.

"- Elə isə könül ərlərinin işi nədir?" -deyə sual verdikdə belə buyurdu:

**"- Allah-Təaladan başqasına könül bağlamamaq!"**[44]

**Bəyazid Bəstami həzrətləri buyurur:**

***"Çox zikr ədədi çox olan deyil, qəflətdən uzaq və hüzur içərisində edilən zikrdir".***[45]

---

44. Əttar, *Təzkirə,* səh. 201; Sərrac, səh. 316; Abbas, *Əbu Yezid,* səh. 98.
45. Əttar, *Təzkirə,* səh. 198.

Zikrin feyz və ruhaniyyətindən layiqincə istifadə edə bilmək üçün qəlbən və zehnən də zikrə daxil olmaq lazımdır. Eynilə namaz kimi zikrin də qəlb və bədən ahəngi ilə ifa edilməsi zəruridir. Yəni dil zikr edərkən qəlb də zikrin mənasını təfəkkürdə dərinləşməlidir.

Özümüzü daima Haqq-Təalanın hüzurunda bilərək Onun bizi hər an və məkanda gördüyü, hətta bizə şah damarımızdan da yaxın olduğu idrakı ilə Haqqa yönəlməliyik. Məhz belə bir yönəlişlə qəlbdə **"hüzur"** halı gerçəkləşir. Arif insanların **"hüzur"** sözü ilə qəsd etdikləri də "bədəni rahatlıq" deyil, Allah ilə bərabərlik şüurunun qəlbə yerləşməsi ilə hasil olan **"daimi zikr"** halıdır.

Özünü hər an ilahi hüzurda hiss etməyin qəlbə qazandıracağı mənəvi təravət zikri ən yüksək səviyyəyə yüksəldir. Haqq-Təala zikrin kamalına nail olan həqiqi zikr əhlindən ayeyi-kərimədə belə bəhs edir:

**"Möminlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə** (Onun heybət və əzəmətindən) **ürəkləri qorxudan titrəyər"** (əl-Ənfal, 2)

Deməli, zikrlə qəsd edilən yalnız dil ilə təkrarlamaq deyil. Əksinə, dilin tələffüz etdiyi ismə aid mənaların təfəkkürü ilə qəlblərin titrəməsi və zakir hala gəlməsidir.

**Həzrət Mövlana** könül feyzindən məhrum olaraq, ibadəti sırf şəkildən ibarət olanlara belə səslənir:

*"Ey qafil, kaş səcdə etdiyin zaman üzünü səmimiyyətlə Haqqa çevirə biləydin. "Ucalardan uca olan Rəbbim hər cür nöqsan sifətdən uzaqdır" sözünün mənasını layiqincə idrak edə biləydin. Yəni etdiyin səcdə sırf şəkildən ibarət qalmayıb, (səni meraca çıxardacaq bir) könül səcdəsi olaydı!.."*

*İxlas, təqva, xüşu kimi qəlbi keyfiyyətlərdən məhrum olaraq qəflətlə əda edilən ibadətlər fani ortaqlar və mənəvi kirlərlə doludur. Ona görə də ibadətləri ixlasla əda etmək zəruridir.*

Bu barədə hədisi-şərifdə belə buyurulur:

*"Dinində ixlaslı ol! Belə edəcəyin təqdirdə işlədiyin az əməl də sənin üçün kifayətdir".* (Hakim, *Müstədrək*, IV, 341)

Yəni masiva düşüncələrindən təmizlənmiş, xalis bir qəlblə edilən saleh əməllər az da olsa Haqq qatında çox qiymətlidir. Bunun əksinə, xüşu, hüzur və ixlasdan uzaq, qafil qəlblə edilən əməllər isə -kəmiyyət olaraq nə qədər çox olsa da- qiymət olaraq o qədər də dəyər daşımır.

Necə ki, Allah-Təala ayeyi-kərimədə:

**"Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq** (bəlli etmək) üçün ölümü və həyatı yaradan Odur..." (əl-Mülk, 2) buyurur. Diqqət etsək görərik ki, burada hansımızın **"daha çox"** əməl edəcəyi yox, **"daha gözəl"** əməl edəcəyinə əhəmiyyət verilir.

Qeyd edəcəyimiz rəvayət bu xüsusa necə də gözəl misaldır:

Bir gün İbn Məsud tabeun nəslindən olan dostlarına belə dedi:

- Siz Rəsulullahın ﷺ əshabından daha çox (nafilə) oruc tutur, namaz qılır və saleh əməllər işləməyə cəhd edirsiniz. Lakin onlar sizdən daha xeyirli idilər.

- Bu necə olur?,- deyə soruşdular.

- Onlar dünyaya qarşı sizdən daha zahid, axirətə də sizdən daha meyilli idilər,- buyurdu. (Hakim, *Müstədrək*, 4/135)

Deməli, əməllərin dəyəri sahib olduğumuz qəlbi səviyyə ilə birbaşa əlaqəlidir.

Bir sözlə, zikrin nuru zikr edənin halı nisbətindədir. Təsəvvüfi tərbiyədə də bir insanın mənəvi dərəcəsi onun vird və zikrlərinin zamanla yüksəlməsi ilə deyil, halının yüksəlməsi ilə bağlıdır. Yəni ibadətlərinin qəlb və bədən ahəngi içində olması, əxlaqının, xüsusilə mərhəmətinin təkmilləşməsi insa-

ni münasibətlərində və müamilələrdə ədəb qaydalarına diqqət etməsi kimi xüsuslara bağlıdır.

Haqq qatında məqbul olan zikr də sözdə yox, əsasda zikrdir. Yəni sözdən hala və əmələ sirayət edən zikrdir. İnsanın şəxsiyyət və xarakterində təsirləri görülən, saleh əməllərlə dəstəklənən zikrdir.

Əgər zikr insanı təfəkkür dərinliyinə götürmürsə, qəlbi hüzura qovuşdurmursa, əxlaqı təkmilləşdirmirsə, davranışlara nəzakət qazandırmırsa, təqva həssasiyyəti təlqin etmir və saleh əməllərə rəğbəti artırmırsa, bu hal zikrin ədəbinə riayət etməməyin nəticəsidir.]

**Bəyazid Bəstami  həzrətləri buyurur:**

***"Haqqa qovuşan, sırf hörməti mühafizə etdiyi üçün qovuşmuşdur. Yolda qalan da sırf hörməti tərk etdiyi üçün geri qalmışdır."*** [46]

[Mənəvi tərbiyə yolunda məqsədə nail olmağın ilk şərti ədəbə riayətdir. Haqq-Təalanın riza və məhəbbətinə nail olmaq da Onun əmrlərini ifa etmək qədər bu əmrləri **"təzim liəmrilləh"** düsturuna görə yüksək

46. Prof. Dr. S. Uludağ, *Bəyazid Bəstami* , səh. 187, TDV Yayınları, Ankara 1994.

təzimlə, yəni ədəb və hörmətlə yerinə yetirməyə bağlıdır.

Allah üçün əda edilən bütün ibadət və xidmətləri iman eşqi ilə, məhəbbətlə, vəcd ilə ifa etmək son dərəcə mühüm qulluq ədəbidir. Çünki Allah-Təalanın bizim ibadət və qulluğumuza ehtiyacı yoxdur.

Bir nəfər **Bəyazid Bəstami həzrətləri**nin hüzuruna gəlib:

- Mənə elə bir şey öyrət ki, qurtuluşuma vəsilə olsun!,- dedikdə belə buyurmuşdu:

- Bu iki cümləni unutma. Bunu bilmək elm cəhətindən sənə yetər:

1. Haqq-Təala sənə şah damarından daha yaxındır, hər şeyi bilir və görür.

2. Allah-Təalanın sənin əməlinə ehtiyacı yoxdur (Əksinə, sən Ona möhtac olduğunun idrakı içində, şükür duyğuları ilə saleh əməllər işləməyə çalış!)".[47]

Xülasə, Haqq qatında mühüm olan xüsus qulluq vəzifələrimizin ifası qədər onların ifası əsnasında sərgilədiyimiz qəlbi vəziyyətimizdir. Yəni səmimiyyət, cəhd, sevgi və hörmətimizin hansı səviyyədə olduğudur.

**Ənəs bin Malik** رضي الله عنه;

47. Əttar, *Təzkirə*, səh. 191.

*“Əməldə ədəb onun qəbuluna işarə edir”*,- buyurmuşdur.

Haqq dostları da:

*“İbadət insanı Cənnətə aparır. İbadətdə ədəb və təzim isə qulu Allaha aparır, Haqqa yaxınlaşdırır”*,- deyiblər.

Bu həssas yanaşmanın təzahürü qəbilindən **Sami Əfəndi** və **Musa Əfəndi həzrətləri** namaza göstərdikləri təzimin gərəyi səccadənin saçaqlarının belə səliqəli olmasına diqqət edərdilər.]

**Bəyazid Bəstami həzrətləri buyurur:**

***“«Lə iləhə illəllah» sözü Cənnətin açarıdır. Lakin bu bir həqiqətdir ki, dişləri olmayan açar qapını açmaz. Kəlmeyi-tövhid açarının dişləri isə bunlardır:***

***1) Yalan, iftira, dedi-qodu, qeybət və boş sözlərdən təmizlənmiş bir dil.***

***2) Hiylə və yalanlardan, günahların zülmətindən paklanmış bir qəlb.***

***3) Haram və şübhəli şeylərdən qorunmuş bir mədə.***

***4) (Qürur, təkəbbür, göstəriş kimi) nəfsani arzulardan və bidətlərdən uzaq saleh əməllər.”***[48]

48. Hani, *Hədaiq*, səh. 320.

[**Rəsulullah** ﷺ buyurur:

*"Kimin son sözü «Lə iləhə illəllah: Allahdan başqa ilah yoxdur»,- olarsa, Cənnətə girər."* (Əbu Davud, Cənaiz, 3116/16-15; Əhməd, V, 247)

Lakin son sözümüzün kəlmeyi-tövhid olmasını istəyiriksə, həyatımızın hər anını tövhid möhtəvasında yaşamağa cəhd etmək zəruridir. Çünki başqa bir hədisdə də belə buyurulur:

*"Necə yaşayarsınızsa, elə ölərsiniz, necə ölərsinizsə, elə də diriləzsiniz!.."* (Münavi, *Feyzul-Qadir*, V, 663)

Həyatımızı kəlmeyi-tövhidin müəyyən etdiyi istiqamət üzrə yaşamaq üçün ağlımızı, qəlbimizi, dilimizi, mədəmizi, bir sözlə, bütün əzalarımızı və onlarla sərgilədiyimiz hərəkətlərimizi tövhid inancına görə süzgəcdən keçirməliyik. Halal-haram, haqq-batil, xeyir-şər, doğru-yanlış, savab-günah kimi xüsuslarda həyatımızı tövhid rəhbərliyində tənzimləməliyik.

Unutmayaq ki, tövhid inancının ortaqlığa əsla dözümü yoxdur. Tövhid əhli bir müsəlman zahirdəki batil ilahları rədd edib yalnız Allahı Rəbb olaraq tanıdığı kimi daxili dünyasından da tövhidin məna və ruhuna zidd olan bütün hal və hərəkətləri uzaqlaş-

dırmalıdır. **Həzrət İbrahim**in bütxanadakı bütləri qırdığı kimi imanın məkanı olan qəlbini də təkəbbür, lovğalıq, riya, ücub, həva-həvəs kimi nəfsani bütlərdən təmizləməlidir. Çünki ayeyi-kərimədə:

**"**(Ya Rəsulum!) **Nəfsini özünə tanrı edəni gördünmü?.."** (əl-Furqan, 43)

Hədisi-şərifdə də:

*"Allahın nəzərində mavi səma altında ibadət edilən saxta ilahlar arasında ardınca düşülən nəfsdən daha ağır və pis olanı yoxdur",-* buyurulur (Heysəmi, I, 188)

Deməli, kəlmeyi-tövhidin həqiqətində dərinləşərək gerçək mənada tövhid əhli ola bilmək üçün insanı Rəbbindən qafil edən bütün nəfsani istəkləri **"Lə iləhə"** deyərək qəlbdən silib atmaq lazımdır. Daha sonra da qəlbin təmizlənmiş zəminində **"illəllah"** həqiqətini bərqərar edib könül taxtını yalnız Allaha aid etmək lazımdır.

**Həzrət İbrahim** عليه السلام bütün fani məhəbbətləri könlündən uzaqlaşdırdıqdan sonra qəlbi Allahın camal təcəllilərinə məzhər oldu. Beləliklə də Allahın dostu oldu.

Ona görə də təsəvvüfdəki mənəvi təkamülün birinci pilləsi "təxəlli", yəni tövbə, istiğfar və peşmanlıq göz yaşları ilə daxi-

li aləmi Allahdan uzaqlaşdıran hər şeydən təmizləmək;

İkinci pilləsi "təhalli", yəni Allah-Təalanın riza və məhəbbətini cəlb edəcək gözəl əxlaq və saleh əməllərlə həmhal olmaq;

Üçüncü pilləsi isə "təcəlli", yəni mərifətullah və məhəbbətullah təcəllilərindən nəsib almaqdır...]

**Bəyazid Bəstami  həzrətləri bir dəfə Allaha dua edərkən belə deyir:**

***"İlahi, mənim Sənə olan məhəbbətimə təəccüb etmirəm. Çünki mən aciz və zəlil bir bəndəyəm. Mən əslində Sənin mənim kimi qulunu sevməyinə təəccüb edirəm. Çünki Sən Uca Rəbb olduğun halda (o qədər mərhəmətlisən ki) zəlil bir bəndəni sevirsən!".*** [49]

[Qulun Allahı sevməsi, Ona itaəti, ibadəti, yalvarması, Onun uğrundakı fədakarlıqları Haqq-Təalaya heç nə qazandırmaz. Çünki O, **Saməd**dir, hər kəs və hər şey Ona möhtacdır, O isə bütün ehtiyaclardan münəzzəh və müstəğnidir. Ona görə də Allaha ibadət və itaət etməyimiz Ona ikram deyil, Onun bizə ikramıdır.

**Şeyx Sədi**nin buyurduğu kimi:

49. Əbu Nuaym, *Hilyə*, X, 34.

*“Səni xeyir iş görməyə müvəffəq qıldığı üçün Allaha şükür et. Çünki Allah-Təala lütf və ehsanı ilə səni boş qoymadı.*

*Padşaha xidmət edən ona minnət qoya bilməz. Səni özünə xidmətə xadim etdiyi üçün sən Ona minnətdar ol”.*

Bir sözlə, Allaha şükür edə bilmək və Ona qulluq etmək mömin üçün ən böyük nemət , izzət və səadətdir.

Qulluqdakı eşq, şövq və həyəcan nöqsanlığı isə böyük iman əskikliyi, maddi-mənəvi nemətlərə qarşı nankorluq və nifaq əlamətidir. Ayeyi-kərimədə münafiq və qafillər haqqında belə buyurulur:

**“…Onlar namaza durduqları zaman** (yerlərindən) tənbəlliklə (könülsüz) qalxar, özlərini (yalandan) **xalqa göstərər və Allahı olduqca az yad edərlər.”** (ən-Nisa, 142)

Bu etibarla mömin Allah üçün olan bütün ibadətlərini, infaqlarını, xidmət və fədakarlıqlarını kiçicik daxili narahatlıq hissi keçirmədən, əksinə, şövq və həyəcanla, sevərək, özünə minnət bilərək əda etməlidir ki, Rəbbinin məhəbbət və rizasına nail olsun.

Kimsə bizə çox dəyərli hədiyyələr gətirsə, lakin onları qaşqabaqlı sifətlə, könülsüz və istəksiz versə, həmin hədiyyəni qəbul

etmək ürəyimizə yatmaz. Lakin can-dildən və ədəblə təqdim edilən ən sadə bir ikramı böyük sevinc və hüzurla qəbul edər, bizdə verənə qarşı sevgi yaranar.

Qulun Rəbbinə ərz etdiyi dua, qulluq və ibadətlər də belədir. Allah üçün etdiyimiz əməlləri nə qədər eşqlə, şövqlə və həyəcanla əda etsək, onların Allah qatındakı qiymətləri də o nisbətdə yüksək olar.

Digər tərəfdən mömin özünü yoxdan var edən Rəbbi üçün nə də etsə az olduğunu düşünərək daim yoxluq, heçlik, acizlik və təvazö halını qorumalıdır. Əsla əməllərinə görə qürrələnməməli, rəhmət və məğfirətini ümid edərək Rəbbinə sığınmalıdır.

Necə ki, elm və irfanda "günəşlər günəşi" adlanan Haqq dostu **Xalid Bağdadi həzrətləri** də tələbələrinə yazdığı məktublarında özü üçün hüsnü xatimə duası istəyərdi. Qardaşlarına yazdığı bir məktubunda da heçlik və təvazö hissiyyatını belə ifadə etmişdir:

"...Allaha and olsun ki, anam məni dünyaya gətirdiyi gündən bəri bircə gün də olsun xeyirli əməl işlədiyimə inanmıram... Əgər nəfsini bütün xeyirli işlərdə müflis vəziyyətdə görmürsənsə, bu, cəhalətin ən son nöqtəsidir. Özünü müflisləşən görüb

əsla Allahdan ümidini kəsmə! Çünki Allahın fəzl və ehsanı bəndə üçün bütün insanların və cinlərin əməlindən daha xeyirlidir..."

Ayeyi-kərimədə:

**"Rəhmanın** (əsl) bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə (təvazökarlıqla) **gəzər..."** (əl-Furqan, 63) buyurulur.

Yəni kamil möminlər Haqqın qüdrət və əzəməti qarşısında heçlik düşüncəsi ilə acizlik və nöqsanlıqlarını dərk edərək yaşayarlar. Çünki Allahın verdiyi nemətlərin şükür borcunu tamamən ödəmək mümkün deyil.

Zira Haqq-Təala bizi yaratmış, varlıqlar içərisində əşrəfi-məxluqat olan "insan" qılmış, insanların arasından seçərək iman sahibi etmiş, ən çox sevdiyi Rəsuluna ümmət olmaq şərəfini bəxş etmiş, Qurani-Kərimin müraciəti ilə şərəfləndirmişdir. Bütün bunlar ömrümüzün sonuna qədər başımızı səcdədən qaldırmasaq da şükrünü əda edə bilməyəcəyimiz möhtəşəm nemətlərdir.

Xülasə, mömin Allahı sevib Ona qulluq etməyi, şükründən aciz olduğu nemətlərin ən böyüyü bilməlidir. Çünki Allah-Təala sevdiyi quluna sevgisini bəxş edər. Ona görə də Allahın rizasını və məhəbbətini cəlb edəcək ibadət, xidmət və fədakarlıqları minnət bilməliyik.

Hədisi-şərifdə buyurulduğu kimi:

*"**Davud Peyğəmbər** belə dua edərmiş:*

*«Allahım! Səndən Səni sevməyi, Səni sevən kəsi sevməyi, Sənin sevginə vəsilə olan əməlləri istəyirəm…»"* (Tirmizi, Dəavat, 72)

Deməli, bizi Allahın sevgisinə çatdıracaq vəsilələr axtarıb tapmalı, onlardan möhkəm yapışmalıyıq. Heç şübhə yoxdur ki, bu vəsilələrin ən böyüyü Allahın ən sevdiyi qulu olan **Həbibullahın sünnə**si üzrə yaşamaqdır.

Çünki Onun söz, fel və halları ilahi muradı ifadə edən Qurani-Kərimin canlı təfsiri mahiyyətindədir.

Bu etibarla Allahın Həbibini gücümüz nisbətində nümunə götürməyə çalışmağımız, Haqq-Təalanın sevgisini əldə etmək üçün ən böyük vəsilədir …]

**Haqq-Təala lütf-kərəmi ilə hər birimizi məhəbbətinə və rizasına səbəb olacaq hal və əməllərə müvəffəq etsin**

**Amin!..**

HAQQ DOSTLARINDAN HİKMƏTLƏR

# Bəyazid Bəstami 2

RƏHMƏTULLAHİ ALEYH

*Çətinlik və qıtlıq zamanında üsyan etməyərək səbir silahına sarılmalıyıq. İmkan sahibi olanda da həddi aşmaqdan çəkinməliyik. Beləliklə hər halda ilahi təqdirə razı olmalıyıq. Çünki bu hal Allahın rizasına nail olma səbəbidir. Haqq-Təala bu xüsusiyyətlə bizi cənnətinə dəvət edir.*



## Bəyazid Bəstami (q.s) -2-

**Bəyazid Bəstami həzrətləri buyurur:**

***“Allahın vəli qullarını sev, sevgini büruzə ver və özünü onlara sevdir ki, onlar da səni sevsinlər. Allah-Təala hər gün və hər gecə yetmiş dəfə vəli qulunun qəlbinə baxar. Bəlkə bir vəlinin qəlbində sənin adına nəzər edər, beləliklə də səni sevər və günahlarını bağışlayar”.*** [50]

[Allahın əfvinə, riza və məhəbbətinə nail olmaq niyyəti ilə Onun vəli qullarına məhəbbət bəsləmək böyük bir səadət vəsiləsidir. Lakin “Mən Allah dostlarını sevirəm” deməklə iş bitmir. Bu sevginin hal və əməllə isbatlanması zəruridir.

Haqqın vəli qullarına məhəbbətin birinci şərti onlara hörmət və ədəblə yanaşmaqdır. Sonra isə onların hal və hərəkətlərini, həyata baxış tərzlərini, halal-haram həssasiyyətləri-

50. Abbas, *Əbu Yezid,* səh. 70; Səhləgi, *ən-Nur*, səh. 99, 115.

ni, haqq-batil, xeyir-şər anlayışlarını, şəfqət, mərhəmət və comərdliklərini, bir sözlə, bütün hissi, fikri və əməli xüsusiyyətlərini imkan daxilində örnək almaqdır.

Bu hadisə necə də ibrətlidir:

**Bəyazid Bəstami həzrətləri** bir gün yolda gedərkən arxadan gələn bir gənc addımını onun ayaq izlərinə qoyaraq təqib edirdi. Şeyxin əynində kürk vardı. Gənc dedi:

- Kürkünüzdən bir parça versəydiniz bərəkət və feyzinizdən istifadə edərdik.

Bəyazid həzrətləri ona bu hikmətli cavabı verdi:

*- Nəinki kürkünü, hətta Bəyazidin dərisini də geyinsən, onun etdiyi əməlləri işləmədikcə heç bir faydası olmaz!*[51]

Yəni əhlullahdan mənəvi istifadə etməyin ilk şərti onlardan görüb öyrəndiklərimizi istedad və taqətimiz nisbətində həyatımıza tətbiq etmək və onlar kimi yaşamağa səy göstərməkdir.

Necə ki, **Həsən Bəsri həzrətləri** belə buyurur:

“Ey insanlar “insan sevdiyi ilə bərabərdir”[52] *hədisini səhv başa düşməyin! (Gücünüz*

51. Əttar, *Təzkirə*, səh. 191.
52. Buxari, Ədəb, 96.

*nisbətində) saleh insanların əməlini işləmədikcə salehlərdən ola bilməzsiniz. Yəhudi və xristianlar da peyğəmbərlərini sevdiklərini iddia edirlər, lakin (hal, əxlaq və yaşayışları baxımından) onlardan uzaqdırlar".* (Əhya, c. II, s. 402)

Xülasə, Allahın vəli qulları ilə birlikdə olmaq və qəlblərində özünə yer tutmaq istəyiriksə, Haqq-Təalanın razı olacağı hal, əxlaq və vəsflərə sahib olaraq həyatımızı Haqq dostlarının göstərdiyi istiqamətdə tənzimləməyə çalışmaq məcburiyyətindəyik.]

**Bəyazid Bəstami həzrətləri buyurur:**

***"Bitmək-tükənmək bilməyən arzularla (nəfsani ehtirasla) könül dünyasını məhv edəni lənət kəfəninə sarıb torpağına basdırarlar. (Bayağı) arzulardan vaz keçərək nəfsi istəklərini özündən uzaqlaşdıranı isə rəhmət kəfəni ilə kəfənləyib əmin torpağa dəfn edərlər".***[53]

[Bu dünyada Haqqa vasil olmağın yolu ***"ölmədən əvvəl ölmək"*** sirrinə nail olmaqdan keçir. Bunun üçün də nəfsani arzulardan sıyrılıb Allaha tam təslimiyyətlə ram olmaq lazımdır. Yəni ilahi əmr və qadağalara cüzi də olsa səhlənkarlıq etmədən, ərinmədən

53. Prof. Dr. Süleyman Uludağ, *Bəyazid Bəstami* , səh. 187, TDV Yayınları, Ankara 1994.

can-dildən boyun əymək və eşqlə, şövqlə qulluq vəzifəsini yerinə yetirmək şərtdir.

Haqq-Təala biz bəndələrini Uca Zatına qulluq etmək üçün yaratdı. Ürəkləri nəzərgahi-ilahi qıldı. Qəlbləri iman nurunun yerləşərək qərar tutduğu ali məkan təyin etdi. Qəlbi -məşru da olsa- fani məhəbbətlərə zəmin olsun deyə yaratmadı. Nəfsani ehtiras və bayağı cazibələrin zibilliyi olsun deyə də yaratmadı.

Əksinə, könül taxtını yalnız Zati-ilahisinə təxsis etməyimizi istədi. Könülləri camal isimlərinin təcəlli edəcəyi təmiz, pak və bərraq bir güzgü olsun deyə yaratdı. Beləliklə qulları ilə "dost" olmağı murad etdi.

Bu dünyada Allah ilə dost olan imanlı könülləri isə son nəfəsdə, qəbirdə, məhşərdə, hesabda və Siratda da sahibsiz və himayəsiz qoymayacağını müjdələdi. Necə ki, ayeyi-kərimədə belə buyurulur:

**"Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər. O kəslər ki, iman gətirmiş və pis əməllərdən çəkinmişlər - Onlara dünyada da, axirətdə də müjdə vardır. Allahın sözləri** (verdiyi vədlər) **heç vaxt dəyişməz. Bu, böyük qurtuluşdur** (uğurdur)**!"**. (Yunus, 62-64)

Qəlbin ən böyük bəxtiyarlığı fani cazibələrin əsarətindən qurtularaq Haqq-Təalanın dostluğuna layiq ola bilməsidir. Qarşılaşdığı ilahi imtahanlarda səbir, səbat, həmd, şükür, riza və təslimiyyətlə kamilləşə-kamilləşə ilahi məhəbbətə layiq hala yüksələ bilməsidir.

Bunun üçünsə məşru olmayan fani məhəbbətlər, arzular və cazibələr xüsusunda nəfsə müqavimət göstərmək və onu susdura bilmək birinci addımdır.

İkinci addımda isə ər-arvad, övlad, mal-mülk, məqam-mövqe kimi məşru məhəbbətlərə də həddən artıq bağlanmayıb onların əsirinə çevrilməmək lazımdır. Bütün bunların imtahan vəsiləsi olduğunu düşünüb onlara layiq olduqları ölçüdə qiymət və əhəmiyyət vermək lazımdır.

Üçüncü pillədə isə fani məhəbbətləri "əl-Vədud", yəni bütün məhəbbətlərin qaynağı olan Allahın məhəbbətinə qəlbi hazırlayan mərhələ kimi görmək lazımdır. Eynilə **Leyla**dan **Mövla**nın eşqinə yüksələn **Məcnun** kimi...

Unutmayaq ki, dünyadakı bütün fani məhəbbətlər **"Leyla"** hökmündədir. Kimisinə görə Leyla əks cinsin nümayəndəsidir.

Kimisinə görə pul-paradır. Kimisinə görə vəzifə, kimisinə görə isə şan-şöhrətdir.

Əgər Məcnun Leylaya bağlı qalsaydı, bəşər tarixində yaşamış saysız-hesabsız Məcnundan biri olar, cisminin ölümü ilə ismi də ölər, bir daha yad edilməzdi. Lakin fani məhəbbətləri qəlbində bir pilləyə çevirib məcazi eşqdən həqiqi eşqə, yəni məhəbətullaha yüksəlməsi nəticəsində bütün fani məhəbbətlər gözündən düşdü. Qiyamətədək gələcək arif və aşiq möminlərin könül üfüqündə ulduza çevriləcək qədər müstəsna şəxsiyyətə çevrildi.]

**Bəyazid Bəstami  həzrətləri buyurur:**

***"Qəlbimi səmaya apardılar. Bütün mələkutu dolaşıb geri qayıtdı. Qəlbimdən soruşdum:***

***"- Oradan nə gətirdin?". Bu cavabı verdi:***

***"- Məhəbbət və riza. Çünki orada bu ikisinin rəğbət gördüyünü gördüm".***[54]

[Haqq-Təala vəli qullarına zaman-zaman bəzi mənəvi hallar, qəlbi kəşflər, zühurat və ilhamlar ehsan edər. Bunlar bəzən yuxuda, bəzən yuxu ilə gerçək həyat arasında, bəzən də dərin təfəkkür və müraqibə əsnasında baş verir. Bəyazid Bəstami  həzrətlərinin bu



54. Əttar, *Təzkirə,* s. 202.

bəyanı da (doğrusunu Allah bilir) bu kimi müşahidənin nəticəsində söylənmişdir. Bu kimi ifadələr şəri bir hökm vəsfi daşımasa da, mərifətullah yolunun səmimi yolçularına geniş üfüqlər açar.

Həqiqətən **məhəbbət** və **riza** iman nurunun təcəlligahı olan qəlbin iki ən mühüm əməlidir. Hər ikisi möminin Haqqa gedən könül yolundakı tərəqqisinin dən böyük sərd mayəsidir.

İmanın da təməlində məhəbbət var. İman bir növ Allaha və Onun sevdiklərinə duyulan sonsuz məhəbbətlə bağlanmaqdır. Məhəbbətin ölçüsü isə fədakarlıqdır. Nəticə olaraq, sevən sevgisi nisbətində fədakarlıq etməyi ən böyük nemət, ləzzət və səadət bilməlidir.

Həqiqi mənada Allahı sevən bir qul Onun özü ilə bağlı -qəhr, yaxud lütf- bütün təqdirini də sevər. Bu isə **riza** halıdır. Hətta Allaha məhəbbətlə dolan bir qəlb Onun təqdirinin öz niyyət,  xəyal və arzularından daha xeyirli olduğuna qənaət gətirər.

**Riza** aram tapmış, yəni Rəbbinin zikriylə mənəvi hüzura qovuşmuş nəfsin ən böyük vəsflərindən biridir. Necə ki, Haqq-Təala **Həzrət Peyğəmbər**in yanındakı möminlərdən bəhs edərkən:

**"...Onlar Allahdan lütf və riza istəyərlər..."** (əl-Fəth, 29) buyurur.

Əgər Allahın bizdən razı olmasını istəyiriksə, ilk növbədə Onun bizim haqqımızdakı təqdirinə riza göstərməli, daima Rəbbimizə həmd və şükür halında olmalıyıq.

Dünya ilahi imtahan məkanı olduğu üçün həyat daima qəhr və lütf təcəlliləri içində davam edər. Bu imtahanlarda necə müvəffəq olacağımız xüsusunda ən böyük nümunəvi şəxsiyyətlər Peyğəmbərlərdir.

Məsələn, Əyyubun عليه السلام yaşağıdı bir-birindən ağır imtahanlar nəticəsində sərvəti, övladı və səhhəti əlindən çıxdı. Lakin o şikayət və fəryad etmək yerinə daima Allaha həmd və şükür etdi. Rəbbinə olan riza və təslimiyyətində azacıq da olsa nöqsan olmadı.

Onun halına dözə bilməyən xanımı:

- Sən peyğəmbərsən, duan məqbuldur. Dua et ki, şəfa tapasan,- dedikdə Hz. Əyyub عليه السلام bu cavabı verdi:

- Allah mənə səksən il sağlamlıq bəxş etdi. Xəstəliyim isə hələ o qədər uzun çəkməyib. Cəmi bir neçə ildir ki, xəstəyəm. Allahdan səhhət istəməkdən həya edirəm!

Bütün ilahi imtahanlar qarşısında sərgilədiyi müstəsna riza halına görə Allah-

Təalanın **"nə gözəl qul"**[55] tərifinə məzhər oldu.

Digər tərəfdən, insanlıq tarixi boyu dünya sərvəti və səltənəti cəhətindən heç bir insanın **Həzrət Süleyman**ın عليه السلام səviyyəsinə çıxması mümkün deyil. Lakin dünyanın cazibəsi Hz. Süleymanın könlünü məşğul etmədi. Onun qəlbi dünyəvi zənginliklərin yuvası olmadı. Dünya səltənəti Allahla bərabərliyinə mane olmadı. Sahib olduğu güc-qüdrət Haqqa qulluqdakı təvazö, xüşu, heçlik və yoxluq hissini pozmadı. O, bütün nemətlərin Allahdan olduğunu bildiyi üçün heç vaxt yoldan çıxmadı. Əksinə, həmişə:

"Mən fəqirəm. Fəqirə fəqirlərlə oturub-durmaq yaraşır",- hissiyyatı ilə həmd, şükür və riza halını qorudu, təvazökar insan kimi yaşadı.

Bu fəziləti səbəbi ilə o da Allah-Təalanın **"nə gözəl qul"**[56] iltifatına məzhər oldu.

Deməli, çətin anlarımızda üsyan etməyərək səbir silahına sarılmalıyıq. Bolluq zamanında da həddi aşmaqdan çəkinəcəyik. Beləliklə hər halımızda ilahi təqdirdən razı olmalıyıq. Zira bu hal Allahın rizasına nailiyyət vəsiləsidir.

---

55. Bax. Sad, 44.
56. Bax. Sad, 30.

"Əğniyayi-şakirin / şükür edən zənginlər" ilə "füqərayi-sabirin / səbir edən kasıblar" Allahın rizasına nail olmaq baxımından eyni mərtəbədədirlər.

Lakin bu, **"...qullarımdan şükür edənlər çox azdır"** (Səbə', 13) ilahi bəyanı gərəyi nadir görülən bir qulluq mərtəbəsidir. Çünki bir çox qəlbi mərhələ qət edildikdən sonra sərgilənə bilən bir fəzilətdir.]

**Bəyazid Bəstami  həzrətləri buyurur:**

***"Kim özünə baxıb ibadətlərini ixlaslı görər, kəşf sahibi olduğunu zənn edər və ən alçaq nəfs olaraq öz nəfsini görməzsə, onun heç bir mənəvi mərtəbədə yeri yoxdur".***[57]

[Qurani-Kərimdə Allah-Təalanın rəhmətinə məzhər olan seçilmiş qullardan bəhs edilərkən:

**"Rəhmanın** (əsl) **bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə (təvazökarlıqla) gəzərlər..."** (əl-Furqan, 63) buyurulur.

Təvazökar mömin comərddir, mərhəmətlidir, təmiz vicdan sahibi və xidmət insanıdır. Fani varlığından sıyrılaraq özünü xidmət karvanının ən sonunda qəbul edən könül insanıdır.

57. Prof. Dr. S. Uludağ, *Bayezid-i Bistami,* sf. 187.

**Həzrət Mövlana:**

“Təvazökarlıq və heçlikdə torpaq kimi ol!”. Çünki torpaq ayaq altında əzilsə də üstündə gəzən bütün canlıların artıqlarını təmizləyir və bitirdiyi müxtəlif nəbatatla daima ikram edir.

Mömin ilk növbədə Rəbbinə qarşı təvazökarlığı əsla əldən buraxmamalıdır. Rəbbinin sonsuz qüdrət və əzəməti qarşısında öz acizliyini, heçlik və yoxluğunu unutmamalıdır. Hətta Ona qulluq edə bilməyin belə Allahın böyük bir ehsanı olduğu hissi ilə nə qədər qulluq edirsə-etsin, əsla təkəbbürə qapılmamalıdır. Əksinə, bildiyi və bilmədiyi xəta və qüsurlarına istiğfarla məşğul olmalıdır.

Çünki Allah-Təala belə buyurur:

**“**(Ya Peyğəmbər!) **Allahın köməyi və zəfər** (Məkkənin fəthi) **gəldiyi zaman; İnsanların dəstə-dəstə Allahın dininə** (islama) **daxil olduqlarını gördüyün zaman Rəbbini həmd-səna ilə təqdis et** (Onu bütün naqis sifətlərdən uzaq tutub pak bil, “Sübhanəkə Allahümmə və bihəmdikə” kəlməsini de) və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!”. (ən-Nəsr, 1-3)

Ən böyük örnək şəxsiyyətimiz və rəhbərimiz olan **Rəsulullah** ﷺ vəfatına səksən

gün qalmış nazil olan bu surəni tez-tez oxuyur və əmr olunanı yerinə yetirirdi.

Deməli, bütün nemətlər Allahın insana ehsan və lütfüdür. İnsan hər hansı müvəffəqiyyət əldə etdiyi zaman bundan nəfsinə pay çıxarmamalı, "mən etdim", "mən bacardım" deməməlidir. Əksinə, "Sən lütf etdin, Sənin ehsanındır, ya Rəbb!..",- deməlidir. Bildiyi və bilmədiyi, fərqində olduğu, yaxud olmadığı saysız nemətlərinə görə Rəbbinə layiqincə şükür edə bilmədiyi üçün əsla tövbə və istiğfarı unutmamlıdır.]

**Bəyazid Bəstami həzrətləri buyurur:**

***"Təkəbbürlü insan əsla mərifətin qoxusunu ala bilməz. Ona görə on səkkiz min aləmdə öz nəfsindən daha pis bir nəfs görməməlidir".***[58]

[**Təkəbbür** kökü cəhənnəmdə olan çirkin bir xislətdir. Haqqa qulluğun seçkin vəsfi olan təvazökarlığın ziddidir. Tövhid əqidəsi kimi Allahın kibriya sifətinin də, yəni böyüklük və ululuq vəsfinin də əsla ortaqlığa dözümü yoxdur. Təkəbbür isə bütün nemət və nailiyyətləri lütf edn Allaha ortaqlıq əlamətidir. Neməti Allahdan bilmək yerinə özünə izafə etmək və nəfsinə pay çıxarmaq qəflətidir.



58. Prof. Dr. S. Uludağ, *Bayezid-i Bistami,* səh. 189.

**Qarun** Allah-Təalanın böyük lütflərinə məzhər olan, zöhd və təqva sahibi bir insan idi. Tövratı da ən yaxşı təfsir edən o idi. Allah-Təala onu sınağa çəkmək üçün xəzinələr verdi. Qarun bu ilahi lütflərə şükür etmək yerinə təkəbbür və lovğalığa düşərək sərvətini bütləşdirdi. Belə ki, **Musa** عليه السلام Qaruna zəkatının hesabını bildirdikdə o: mən bunları öz elmimlə qazandım,- deyərək təkəbbürlə etiraz etdi. Nəticədə isə arxalandığı xəzinəsi ilə birlikdə yerin dibinə batdı, zəlil halda həlak edildi.

Əbrəhə də o dövrün tankları sayılan fillərlə Kəbəni yıxmaq üçün yola çıxmışdı. Allah-Təala Əbabil quşlarını göndərdi. Bu kiçik quşların vasitəsi ilə o nəhəng fil ordusunu həlak etdi. Lakin Əbrəhəni ibrət olması üçün orada öldürmədi. Onu qürur və təkəbbürlə çıxdığı yurduna zəlil halda geri qaytardı və orada həlak etdi.

Ona görə də Allah dostu olan arif insanlar daim nəfslərinə qarşı ayıq-sayıq olaraq azacıq da olsa təkəbbür və lovğalıq gəlmə ehtimalı qarşısında dərhal öz nəfslərinə həddini bildirmişlər.

**Həzrət Ömərin** عليه السلام bu halı sözügedən xüsusda necə də hikmətlidir:

Əshabi-kiramdan **Zeyd bin Sabit** عليه السلام nəql edir:

"Xəlifə Həzrət Ömərin əynində bir paltar gördüm. Paltarda on yeddi yamaq vardı. Ağlayaraq evə qayıtdım. Bir müddət sonra təkrar yola çıxdım. Yenə Həzrət Ömərlə qarşılaşdım. Çiyininə bir su tuluğu qoyub camaatın arasında gəzirdi. Heyrətlə:

- Ey möminlərin əmiri!,- dedim. Mənə:

- Sus, danışma, səbəbini sonra izah edərəm,- buyurdu.

Onunla birlikdə addımlamağa başladım. Yaşlı bir qadının evinə girib gətirdiyi su ilə onun qablarını doldurdu. Sonra birlikdə Həzrət Ömərin evinə getdik. Ondan nə üçün belə etdiyini soruşdum. Belə buyurdu:

- Sən gedəndən sonra yanıma rum və fars elçiləri gəldi. Mənə:

- Allah sənə xeyir versin, ey Ömər! Bütün insanlar sənin elmin, fəzilət və ədalətindən danışır,- dedilər. Onlar yanımdan gedəndən sonra ürəyimdə özümü bəyənmə duyğusu baş qaldırdı. Dərhal qalxıb nəfsimə gördüyün işləri etdirdim". (Muhibbut-Təbəri, *ər-Riyadun-Nədra,* II, 380)

*"Nəfsini tanıyan Rəbbini də tanıyar"* sözünə əsasən mərifətullaha nail olan, yəni Allahı qəlbən tanıyan və Onunla bərabərliyin feyz və ruhaniyyəti içində yaşayan əhli-irfanın ən böyük mücadiləsi nəfslərinə qarşı apardıqları daxili mücadilədir. Çünki nəfs nə qədər tərbiyə edilirsə edilsin, yenə də şərindən əmin olunmayan bir imtahan ünsürüdür.

Mərhum **Necip Fazıl***ın Yunus Əmrə adlı dram əsərində bu xüsusla bağlı hikmətli bir səhnə var. Xülasə olaraq belədir:*

**Yunus Əmrə həzrətləti şeyxi Tapdıq Baba**nın dərgahında nəfsini tərbiyə etmək üçün 40 günlük xəlvətə çəkilir. Qırxıncı gün nəfsinə sahib olub-olmayacağı xüsusunda bir sınağa çəkilir.

Dərviş Yunus çiləxananın qapısında bir qadın səsi eşidir. Guya, gələn **şeyxin qızı**dır. Yunus qapını açmır. Qız isə min bir dil tökərək qapını açdırmağa çalışır.

"Ey Yunus, qırx gündür burda çilə çəkirsən. Özünü mənimlə imtahan et",- deyir. Yunus bu nəfs imtahanı ilə üzləşmək üçün qapını açdığı zaman qarşısında **"Qara geyimli adam"**ı görür.

Qara geyimli adam Yunusun riyazət və mücahidələri nəticəsində daxili dünyasından çıxıb qarşısına çıxan nəfsidir. Yunus onu

qovaraq özündən uzaqlaşdırmağa çalışır. O isə kölgə kimi sahibindən ayrılmır. Üstəlik müxtəlif vəsvəsə və zəhərli fikirlərlə Yunusu çıxdığı yoldan geri qaytarmaq istəyir. Onu sərvət, şəhvət və şöhrət vədləri ilə nəfsinə qarşı verdiyi amansız mücadilədən döndərməyə çalışır.

Yunus qara geyimli adamı, yəni nəfsini yaxalamışkən onu öldürərək şərindən tamamən qurtulmaq istəyir. Boğmaq istəsə də boğa bilmir. Su səhəngini qara libaslı adamın başına çırpır. Lakin səhəng bir kölgənin içindən keçib divara dəyir.

Nəticədə Yunus anlayır ki, nəfsini öldürməsi imkansızdır. Amma onu **"lə iləhə illəllah"** zikri ilə zəncirləyə biləcəyini dərk edir. Zikri duyan ilahlıq həvəsindəki nəfs sanki başından vurularaq, geri çəkilib otaqdan çıxır.

Sonra Tapdıq babanın səsi eşidilir. Yunus bu səfər də nəfsinin şeyxi qılığında gəldiyini düşünərək tərəddüdə qapılır. Lakin Tapdıq baba gələnin özü olduğunu, nəfsininsə zəncirləndiyini deyib qapını açdırır. Sonra buradakı iztirabının sona çatdığını, artıq son nəfəsə qədər davam edəcək daha böyük məşəqqətlərin olduğu yerə qədəm qoyacağını, əziyyətlərlə qarşılaşacağını xəbər verərək onu

"ər meydanı" adlandırdığı zahiri dünyaya çıxarır. Ona dağdan dərgaha odun daşımağı tapşırır. Sonra da onu qızı ilə nikahlayacağını bildirərək belə nəsihət edir:

"(Yunus!) Heç kəsin haqqını yemə! Hətta nəfsinin də haqqını... Nəfsin haqqı şəriətdə yazıldığı qədərdir... Nə bir loğma artıq, nə də əskik... Nəfsi zəncirləmək belə olur. Nəfsini öldürməyə çalışma! (Çünki nəfs ölməz. Sən onu) imana gətirməyə çalış! Allah səni ona qalib gələsən deyə yaratdı!.."[59]

Xülasə, nəfs hər cildə girər və hər yerə gedər. Sahibini kölgə kimi izləyər. Onu tamamən uzaqlaşdırmaq nə mümkündür, nə də məqbul. Məqbul olan mənəvi tərbiyə ilə onun gücünü nəzarət altına alaraq Allaha qulluğa ram etməkdir.

İmam Qəzali həzrətləri bu həqiqəti necə də gözəl xülasə edir:

*"Nəfs ruhun miniyidir. Əgər insan nəfsin yüyənini boşaldar və özünü onun getdiyi istiqamətə buraxarsa, mütləq həlak olar... Elə isə nəfsinin yüyənindən möhkəm yapış və miniyindən istifadə etməyə çalış!.."*]

**Allah-Təala biz aciz bəndələrini göz yumub-açana qədər də olsa, nəfsimizin**

59. Bkz. N. F. Kısakürek, *Yunus Emre*, sf. 36-44, Büyük Doğu Yayınları, İstanbul 1984.

**əlinə buraxmasın. Lütf və kərəmi ilə hər birimizi ixlasını qoruyan saleh qullarının arasına daxil eyləsin. İxlas, təqva, riza, məhəbbət və mərifət nurları ilə qəlblərimizi nurlandırsın.**

**Amin!..**

HAQQ DOSTLARINDAN HİKMƏTLƏR

# Bəyazid Bəstami

RƏHMƏTULLAHİ ALEYH

3

*Ata-analara ilahi əmanət və imtahan vəsiləsi olaraq lütf edilən övladlar dünyaya cənnətə layiq paklıqla gələrlər. Lakin ata-analar onların mənəvi tərbiyələrinə səhlənkar yanaşarlarsa, o cənnət quşlarını (Allah qorusun) yanlış ünvanlara uçurdarlar.*

# Bəyazid Bəstami (q.s) -3-

**Bəyazid Bəstami həzrətləri buyurur:**

***"Kəramət göstərən, hətta havada bardaş qurub oturan birini görsəniz, bu halına aldanmayın. İlahi əmr və qadağalara riayət edib-etmədiyinə, şəriətin hökmlərini layiqincə yerinə yetirib-yetirmədiyinə baxın".***[60]

[Möminin ən böyük kəraməti **"əmr olunduğun kimi istiqamət üzrə ol!"** (Hud, 112) ayeyi-kəriməsinə itaət edərək Allahın rizası istiqamətində həyat sürməkdir. Yəni həyatının hər bir mərhələsini ilahi əmr və qadağalara görə tənzimləyə bilməsidir. Çünki Haqq-Təalanın rizası təqva üzrə yaşanan qulluğa bağlıdır. Bu xüsusda nöqsanları olmasına baxmayaraq insanın özünü kəramət əhli, istiqamət sahibi və ya müttəqi müsəlman olaraq görməsi yalnız dərin qəflətin ifadəsidir.

Çünki İslam sadəcə bizim ibadətlərimizi deyil, eyni zamanda həyatımızın hər bir

60. Beyhəqi, *Şuab,* III, 304; Quşeyri, *Risalə,* səh. 58.

mərhələsini tənzimləyir. Yəni sırf namaz, oruc, zəkat, həcc ilə Haqqa qulluğumuz kamil mənada ifa edilmiş olmur. Ticarət sahəsində, ailədə uşaqlarımızın təhsilində, qonşuluq münasibətlərində, cəmiyyətə qarşı məsul olduğumuz işlərimizdə də müsəlman şəxsiyyətinin tələb etdiyi vəzifələri yerinə yetirməliyik.

Məsələn, heç bir təqva sahibi ata-ana dünyəvi cəhətdən övladının parlaq gələcəyi üçün mənəvi həssaslıqları gözardı edərək, dini və əxlaqi nöqteyi-nəzərdən nəyisə qurban vermək bahasına təhsil almasına razı olmaz. Çünki mənəviyyatdan məhrum olan bu kimi təlim-tərbiyə həm övladların, həm də məsuliyyətləri nisbətində ata-anaların əbədi həyatlarını təhlükəyə atar.

Sabah ilahi hesab günündə insanı ən çətin vəziyyətdə qoyacaq xüsuslardan biri də valideynlərindən şikayətçi olmalarıdır. Onların:

“Ya Rəbb, ata-anam mənə Quran və Sünnə tərbiyəsi vermədilər. Məni mənəvi, uxrəvi həqiqətlərdən məhrum etdilər. Yol verdiyim səhvlərin ən böyük səbəbi onların səhlənkarlığıdır”,- deyərək şikayət etmələridir.

Ayeyi-kərimədə buyurulduğu kimi:

**"O gün insan qaçacaq öz qardaşından; anasından, atasından; zövcəsindən və oğullarından!"** (əl-Əbəsə, 36-34). Bu isə qiyamət günü insanların ailə fərdlərinə qarşı məsuliyyətlərinin hesabı səbəbi ilə duyacaqları dərin əndişə halını təsvir edir.

Bir sözlə övladlarımıza dünyada parlaq gələcək təmin etmək üçün mənəviyyatdan məhrum təlim-tərbiyə yolları göstərmək həm onların, həm də bizim axirətimizi əbədi fəlakətə çevirən həzin aldanışdır.

Ata-analara ilahi əmanət və imtahan vəsiləsi olaraq lütf edilən övladlar dünyaya cənnətə layiq paklıqla gələrlər. Lakin ata-analar onların mənəvi tərbiyələrinə səhlənkar yanaşarlarsa, o cənnət quşlarını (Allah qorusun) yanlış ünvanlara uçurdarlar.

Ona görə də uşaqlarımızın Quran kurslarından, təqva sahibi olan alimlərin elm və irfanından istifadə etmələrinə nə qədər nail olub-olmadığımızı tez-tez düşünməliyik.

Zəmanəmizdə təqva ölçülərinin arxa plana atıldığı xüsuslardan biri də sünnət və toy-düyün kimi mərasimlərdə sərgilənən qeyri-İslami hərəkətlərdir.

Halbuki övladlarımızın yeni bir həyata addım atdığı bu kimi mərasimlər Qurani-

Kərimlə, dualarla, mənəvi söhbətlərlə, ağzıdualı yoxsulların da dəvəti ilə keçirilməlidir.

Çünki sünnətlərdə övladlarımız sahib olduqları dinin şüuruna varmaqda, toylarda isə yeni bir dünyaya qədəm basmaqdadırlar. Həyatda bu qədər mühüm dönüş nöqtəsi olan bu kimi mərasimlər ilahi qəzəbi cəlb edəcək azğınlıqlarla deyil, Allahın rəhmətini cəlb edəcək şəkildə həyata keçirilməlidir…

Təəssüflər olsun ki, bu gün məhrəmlik duyğularının zəiflədiyi, daha çox varlıların çağırılaraq fağır-füqəranın unudulduğu, bir növ israf çılğınlığına və güc nümayişinə çevrilən, daha çox moda səhnəsini xatırladan mərasimlərə tez-tez şahid oluruq. Bunlar isə ilahi rəhməti uzaqlaşdırıb, qəzəbi özünə çəkən mənzərələrdir.

Ailə faciələri və boşanmaların hər gün bir az daha artdığı zəmanədə yaşayırıq. Mənəviyyatdan uzaqlaşmaq Haqq-Təalanın rəhmət, yardım və lütfündən məhrumiyyəti də özü ilə gətirir.

Allah-Təala fərd, ailə və cəmiyyət üçün əsl hüzur və səadətin düsturunu ayeyi-kərimədə belə bildirir:

**"Allahın Kitabını oxuyan, namaz qılan, özlərinə verdiyimiz ruzilərdən** (Allah yolun-

da) **gizli və aşkar xərcləyənlər kasad olmayacaq bir ticarət** (savab) **umarlar".** (əl-Fatir, 29)

Ayədə zikr olunan "تِجَارَةً لَنْ تَبُورَ", yəni **"əsla kasad olmayacaq bir ticarət"**in ilk maddəsi: **"Qurani-Kərimin tilavət edilməsi"**dir.

Yəni Qurani-Kərimi öyrənmək, öyrətmək və bu yolda əmək sərf edərək Quran xidmətlərinə dəstək olmaqdır.

**Həzrət Peyğəmbər**in acından qarnına daş bağlayaraq ikiqat qaldığı zamanlarda belə tərk etmədiyi ən mühüm xidmətlərdən biri də məhz Quran tələbələri olan Əshabi-Suffəni yetişdirmək olmuşdur. O rəhmət peyğəmbəri Taifdə daşqalaq olunsa da bəddua etməmişdir. Uhud günü dişi qırılaraq mübarək yanağından qan süzüldüyü vaxt bəzi səhabələr:

- Ya Rəsulallah, kafirlərə bəddua edin,- dedikdə belə buyurmuşdu:

*"- Allah məni insanları ayıblamaq və onlara lənət etmək üçün göndərmədi. Haqq-Təala məni hər kəsə çoxlu dua etmək və insanlara rəhmət olmaq üçün göndərdi".*[61]

Lakin o rəhmət peyğəmbəri Quran müəllimlərini şəhid edən bədbəxt müşriklərə tam

61. Beyhəqi, *Şuab,* II, 164/1447. Qarşılaşdır. Müslim, Birr, 87; Tirmizi, Dəavat, 118.

bir ay boyu sübh namazından sonra bəddua etmişdir.[62] Allah Rəsulunun bu halı Qurani-Kərimə qarşı həssaslıq ölçümüzün necə olacağını göstərir.

Allah Rəsulu ﷺ Quran xadimlərini daima üstün tutmuş, ümmətinə tövsiyələrində onlara ehtiram etmələrini buyurmuşdur.[63]

Unutmayaq ki, Fəxri-Kainat ﷺ bizə hər sahədə olduğu kimi xüsusilə Quran xidmətlərində fədakarlıqları ilə də nümunədir.

Ayeyi-kərimədə buyurulan **“kasad olmayacaq bir ticarət”**in ikinci maddəsi isə **“namaz qılmaqdır”**.

Yəni namazı başdansovdu edərək tələsik qılmaq yox, qəlb və bədən ahəngi içində, xüşu ilə əda etməkdir. Kamil mənada qılınan namazda bədənin qibləsi Kəbə, qəlbin qibləsi isə aləmlərin Rəbbi olar. Məqbul bir namaz bəndəni merac üfüqünə yüksəldən, səcdələri ilə Rəbbə yaxınlıq iqliminə aparan möhtəşəm bir ibadətdir. Allah-Təala insan anatomiyasını səcdə etməyə ən əlverişli yaratmışdır ki, qul çox səcdə edərək Rəbbinə yaxınlaşa bilsin.

62. Bax. Buxari, Cihad 9, 19, Məğazi 28; Müslim, Məsacid, 297.
63. Bax. Vaqidi, III, 1003.

Ayeyi-kərimədə zikr olunan **"kasad olmayacaq bir ticarət"**in sonuncu maddəsi isə **"Allahın lütf etdiyi nemətlərdən gizli və aşkar infaq etmək"**dir.

Yəni Allahdan gələni yenə Onun rizasını qazanmaq yolunda səxavətlə xərcləməkdir. İxlası qorumaq üçün mümkün mərtəbə gizli infaq etmək lazımdır. Lakin açıq-aşkar infaq etmək zərurəti doğduqda da qəlbi riya və göstərişdən qorumaq gərəkir.

**Bəyazid Bəstami həzrətləri buyurur:**

***"Sufi bir əlinə Qurani-Kərimi, o biri əlinə Sünneyi-Səniyyəni alan, bir gözü ilə cənnətə, o biri gözü ilə cəhənnəmə baxan, dünyanı vücudunun aşağı hissəsinə, axirəti isə üst hissəsinə dolayaraq ehrama girən və bu ikisinin arasında "Ləbbeyk, Allahummə ləbbeyk/ Buyur, Allahım! Əmrinə təslim olmuşam, hüzurunda hazıram!",- deyərək Mövlasına qaçan kəsdir".***[64]

Dünyadan axirətə gedən səfərimizdə ən böyük rəhbərimiz **Qurani-Kərim** və **Sünneyi-Səniyyə**dir. Həyat səfərini rizayi-ilahi hədəfindən yayınmadan başa vurmaq üçün Quran və Sünnənin təlimatlarına həssaslıqla tabe olmaq zərurətindəyik.

64. Səhləgi, *ən-Nur*, s. 124; Abbas, *Əbu Yezid,* səh. 71.

Qurani-Kərimə qarşı vəzifələrimizdə bu üç məsələyə xüsusilə diqqət etməliyik:

**Birincisi,** düzgün qiraətimiz olmalıdır. (Onsuz da qiraətsiz namaz olmaz)

İkincisi, Quranın qoyduğu sərhədlərdən kənara çıxmamaq, əmr və qadağalara riayət.

Üçüncü isə, Quran əxlaqı ilə əxlaqlanmaqdır.

Mömin həyatının hər bir mərhələsində özünü Quran ölçüləri ilə müqayisə etməlidir. "Mənim bu halımdan Allah razıdırmı" sualını təfəkkür edərək davranışlarına istiqamət verməlidir.

Qurani-Kərimin ən böyük təfsiri isə 23 illik nəbəvi həyatı ilə **Allah Rəsulu**dur. Necə ki, Allah-Təala ayeyi-kərimələrdə belə buyurur:

**"Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur…"** (ən-Nisa, 80)

**"O, kefi istəyəni** (havadan) **danışmır. Bu, ancaq** (Allah dərgahından) **nazil olan bir vəhydir".** (ən-Nəcm, 3-4)

**"Onu Cəbrayıl** (Ruhul-əmin) **endirdi:** (Günahkarları Allahın əzabı ilə) **qorxudan** (xəbərdar edən) **peyğəmbərlərdən olasan deyə, sənin qəlbinə** (nazil etdi); **Özü də açıq-aydın ərəb dilində".** (əş-Şüəra, 193-195)

Bir sözlə, Allah Rəsulunu tanımadan, Onun könül iqlimindən nəsiblənmədən, sünnəsini yaşamadan nə Quranı tam mənada idrak edə bilərik, nə də qulluğumuz kamil qulluq sayılar.

Möminin kamillik mərtəbəsinə nail olması yalnız fərzlərdən əlavə sünnələrə də riayət etməsi ilə mümkündür. Abdullah bin Deyləmi (q.s) buyurur:

*"...Dinin yox olmasının başlanğıcı Sünnənin tərk edilməsi ilə olacaqdır. Kəndirin lif-lif sökülərək nəhayət qopduğu kimi din də sünnələrin bir-bir tərk edilməsi ilə ortadan qalxar".* (Darimi, Müqəddimə, 16)

Bu gün Muhamməd ümməti olaraq Həzrət Peyğəmbəri, beləliklə də Sünnəni xəfifə alan, hətta inkar edən "dini cərəyan"-lara qarşı hədsiz dərəcə diqqətli və ayıq olmalıyıq. Çünki sünnələri gözdən salmağa çalışan din alimi etiketli bəzi din təhrifçilərinin sonrakı addımda fərzləri qaldırmağı hədəfləmələri şübhəsizdir.

Xüsusilə axırzaman dediyimiz bu dövrdə sünnələrə daha da möhkəm sarılmalıyıq. Hədisi-şərifdə buyurulduğu kimi:

*"Elə bir zaman gələcək ki, həmin vaxt bu üç şeydən daha qiymətli heç nə olmayacaq: Halal*

*pul, can-başla yoldaşlıq edəcək qardaş və əməl olunacaq bir sünnə".* (Heysəmi, I, 172)

*"Sizə iki miras qoyub gedirəm. Onlardan möhkəm yapışdığınız müddətdə əsla zəlalətə düşməzsiniz: Allahın kitabı və Rəsulunun sünnəsi".* (Muvatta, Qədər, 3)

Quran və Sünnənin feyzindən uzaqlaşdıqca qəlblərdəki iman nuru zəifləyər, (Allah qorusun) şam işığı kimi azacıq küləklə sönər.

**Bəyazid Bəstami həzrətləri** də bütün Haqq dostları kimi Sünneyi-Səmiyyəyə riayət etməyə böyük əzmlə can atardı. Zərrə qədər də olsa, səhlənkarlıq etməzdi. Hər bir halını Allah Rəsulunun halı ilə götür-qoy edərdi. Mühüm nəsihətlərindən biri də belədir:

***"Hər kim Qurani-Kərimin qiraətini və zöhd həyatını tərk edər, camaatla namaza davam etməz, cənazələrə qatılmaz, xəstələri ziyarət etməz, bununla yanaşı sufi olduğunu iddia edərsə, o, sadəcə qafildir".***[65]

Yəni Qurani-Kərim və Sünneyi-Səniyyənin feyz və ruhaniyyətindən uzaq bir həyatda xeyir yoxdur. Belə bir həyata dalanların dilindən təsəvvüfi hikmət ifadələri tökülsə də, onların ardınca getməmək lazımdır. Dilin sümüyü yoxdur. Hətta tutuquşu

65. Beyhəqi, *Şuab,* III, 305; İbnul-Cövzi, *Təlbisu İblis,* səh 151.

da bəzi sözləri əzbərləyib deyə bilər. Lakin **Həzrət Mövlana**nın buyurduğu kimi:

*“Əməl olunmayan hikmətli söz borc alınmış bərbəzəkli paltar kimidir!..”*

Yəni yaşanmayan, irfana çevrilməyən, şəxsiyyət və xarakterin bir parçası halına gəlməyən biliklər Həzrət Peyğəmbərin ifadəsi ilə “ondan Allaha sığınılacaq faydasız elm”[66] qəbilindəndir.

Dolayısı ilə gücümüz nisbətində Rəsuli-Əkrəmdən nümunə götürmək dərdində olmalıyıq. Həyatımızın hər mərhələsində və qarşılaşdığımız hər bir hadisədə hal və davranışlarımızı daima nəbəvi əxlaq ölçüləri ilə ölçüb-biçməliyik. Düşünməliyik ki:

“Görəsən, Allah Rəsulu bu dəqiqə yanımızda olsaydı, o gül üzü ilə bizim halımıza təbəssüm edərdimi? Yoxsa mübarək üzünün rəngi dəyişər, çiçəklərdən zərif könlü inciyər, nurlu alnındakı damarı qabarar və “Mənə nə olur ki, sizi belə görürəm”,- deyə xəbərdarlıq edərdi?”

Məhz bu kimi düşüncələrlə həyatlarını Aləmlərin Sultanına məhəbbətin, bağlılığın, itaətin təcəlligahına çevirə bilən Muhamməd ümməti necə də xoşbəxtdir!..

66. Bax. Müslim, Zikr, 73.

**Bəyazid Bəstami həzrətləri buyurur:**

***"Təsəvvüf nəfsani arzulardan təmizlənmək, qəlbi Haqqa ram etmək, bütün gözəl vəsflərlə əxlaqlanmaq və daima Allahın rizası istiqamətində ola bilməkdir."***[67]

Mömin hər işdə Rəbbinin rizasını ön planda tuta bilən kəsdir. Haqqın rizası ilə nəfsinin arzuları qarşı-qarşıya gəldikdə nəfsinin gizli etirazına boyun əyməyən, iradə sahibi kəsdir. Bu sarsılmaz iradənin qazanılması üçün də nəfsi riyazət və mücahidə kimi tərbiyə üsulları ilə xam vəsflərdən qurtararaq mənən kamilləşdirmək zəruridir.

Allah-Təala əhəmiyyətinə görə Qurani-Kərimdə ard-arda yeddi dəfə and içdikdən sonra buyurur:

**"Nəfsini pisliklərdən təmizləyən mütləq qurtuluşa nail olmuş, onu pisliklər içində batıran da, əlbəttə ki, zərərə düçar olmuşdur".** (əş-Şəms, 10-9)

Yəni insanı Rəbbindən uzaqlaşdıran bütün pis məziyyətləri, nəfsani zəiflik və ehtirasları daxili dünyamızdan da təmizləmək məcburiyyətindəyik. Zira ilahi imtahan hikmətinə görə haramlarda nəfsani bir cazibə var. Nəfsimizi təzkiyə etməsək, pis xasiyyətlərdən təmizləməsək, onu özünə

67. Səhləgi, *ən-Nur*, s. 138.

cəzb edən günah tələlərinə qarşı iman müqaviməti göstərə bilmərik. Halbuki ilahi rəhmət və ehsanlar daima nəfsin ehtiraslarına müqaviməti labüd qılan imtahanların ardında gizlidir.

**Rəsulullah**ın ﷺ bu bəyanatı sözügedən həqiqəti necə də gözəl ifadə edir:

*"Allah-Təala cənnəti yaratdıqdan sonra Cəbrayıl* عليه السلام *buyurdu:*

*- Get, ona bax! Cəbrayıl* عليه السلام *gedib cənnətə baxdı, sonra gəlib:*

*- Ey Rəbbim, izzətinə and olsun ki, onu (cənnətin ehtişamını) eşitdiyi halda oraya getməyən heç kəs qalmaz,- dedi.*

*Sonra Allah onu(n ətrafını nəfsə ağır gələn) çətinliklərlə əhatə etdi və:*

*- Ey Cəbrayıl, get bir daha ona bax,- dedi.*

*Cəbrayıl* عليه السلام *bir daha cənnətə baxdıqdan sorna gələrək dedi:*

*- Ey Rəbbim, izzətinə and olsun ki, artıq oraya heç kimin girə bilməyəcəyindən qorxmağa başladım.*

*Sonra Allah cəhənnəmi yaratdı və:*

*- Ey Cəbrayıl, get, ona bax,- buyurdu. Cəbrayıl* عليه السلام *gedib ona baxdı. Sonra gəlib:*

*- Ey Rəbbim, sənin izzətin haqqı üçün (deyirəm ki) onu (cəhənnəmin yandırıcı əzabını) eşidən heç kim ora girməz,- dedi.*

*Bunun üzərinə Allah-Təala onun ətrafını şəhvətə xoş gələn şeylərlə bəzədi. Sonra yenə Cəbrayıla:*

*- Ey Cəbrayıl, get, ona bir daha bax,- buyurdu.*

*Bunun üzərinə (Cəbrayıl* عليه السلام *bir daha gedib cəhənnəmə baxdı. Sonra gəlib:*

*- Ey Rəbbim, izzətinə and olsun ki, mən bircə nəfər də qalmadan hamının ora girəcəyindən qorxmağa başladım,- dedi."* (Buxari, Riqaq, 28; Müslim, Cənnət, 1; Tirmizi, Sifətul-Cənnət, 21)

Deməli, cənnət mənəvi tərbiyə ilə kamilləşməmiş, nadan və xam nəfsə son dərəcə ağır gələn çətinliklərlə əhatə olunmuşdur. Cənnətə girə bilmək üçün nəfsin arzularına qarşı sinə gərərək Haqqa və həqiqətə ram olmaq, bu yoldakı bütün məşəqqətlərə səbirlə dözmək lazımdır.

Digər tərəfdən cəhənnəmin nəfsə xoş gələn şəhəvi arzularla bəzədilməsi də ilahi əzabdan qurtulmaq üçün nəfsi təzkiyə etməyin zərurətini ifadə edir.

Haqq-Təala bu xüsusda bizə misal olaraq Qurani-Kərimdə **Hz. Yusif in** عليه السلام **Züleyxa** ilə olan imtahanını xəbər verir:

Nəfsi-əmmarəni təmsil edən Züleyxa könül verdiyi Hz. Yusifə nəfsani arzuları cəzb edəcək bütün şəraiti hazırladı. Züleyxa xam nəfslərin ən çox məğlub olduğu "sərvət, şəhvət və şöhrət"in zirvəsində idi. Üstəlik gizli və xəlvət yerdə günahlar daha asan işləndiyi üçün Züleyxa da əvvəlcə Yusif i عليه السلام otağına çağırdı. Qapını bağladı, sonra "هَيْتَ لَكَ : haydı gəl"[68] dedi.

Bu imtahanda Yusifin عليه السلام dadına çatan " مَعَاذَ اللّٰهِ : (Haşa! Bundan) Allaha sığınıram!"[69] déməsi oldu. Neçə-neçə güclü iradələrin əridiyi belə bir çətin məqamda nəfsin şərindən Allaha sığına bilmək yalnız nəfs təzkiyəsi və qəlb təsfiyəsi nəticəsində nail olunan ali iman zirvəsidir. Hz. Yusifin sərgilədiyi bu ixlas və təqva halı qarşısında Allahın yardımı gəldi. Rəbbimiz bu həqiqəti belə xəbər verir:

**"Doğrudan da** (qadın) **ona meyl salmışdı. Əgər Rəbbinin dəlilini** (xəbərdarlığını) görməsəydi, (Yusif də) **ona meyl edərdi. Biz pisliyi və biabırçılığı** (zinanı) **ondan sovuşdurmaq üçün belə etdik. O, həqiqətən, Bizim sadiq bəndələrimizdəndir!"** (Yusuf, 24)

Necə ki, **Rəsulullah** ﷺ də bir hədisi-şərifində heç bir kölgənin olmayacağı qiyamətin

68. Bax. Yusuf, 23.
69. Bax. Yusuf, 23.

o çətin anında Allahın yeddi qrup insanı Ərşi-Əlanın kölgəsində himayə edəcəyini bildirdikdən sonra bu qruplardan birinin də *gözəl və məqam sahibi qadının birlikdə olma istəyini "Mən Allahdan qorxuram"*,- deyərək rədd edən gənc olduğunu ifadə etmişdir. (Buxari, Azan, 36)

Xülasə, ətrafı məşəqqətlərlə əhatələnmiş, içərisi möhtəşəm gözəlliklərlə dolu cənnətə dəvət olunmaq üçün nəfsin bayağı arzularından uzaqlaşmaq məcburiyyətindəyik. Çünki o lətafət diyarına nəfsi arzuların kəsafəti ilə girmək mümkün deyil.

Həmçinin ətrafı şəhvani arzularla bəzədilmiş, içərisi isə şiddətli əzabla dolu olan cəhənnəmə düşməmək üçün də nəfsimizin bitməz-tükənməz ehtiraslarına qarşı son nəfəsə qədər sülhü olmayan cəng düşüncəsi ilə qarşı durmalıyıq.

**Allah-Təala hər birimizi həyatımızın hər anında nəfsi-əmmarənin şərindən qorusun. İxlasını qoruduğu bəxtiyar qullarının arasına biz aciz qullarını da lütf-kərəmi ilə daxil eləsin.**

**Amin!..**

HAQQ DOSTLARINDAN HİKMƏTLƏR

# Bəyazid Bəstami

RƏHMƏTULLAHİ ALEYH

4

*Görən gözlər üçün bu kainatdakı ümumi mənzərə fanilikdir. Biz də bir gün əriyib solacaq dünya nemətləri ilə imtahan edilən axirət yolçularıyıq. Elə isə bizim üçün dünya karvansarayında yerli ədası ilə oturmaq və qonaq olduğumuz bu evin nəfsani bər-bəzəyi ilə həddən artıq məşğul olmaq qədər böyük bir aldanış olmaz.*



## Bəyazid Bəstami (q.s) -4-

**Bəyazid Bəstami həzrətləri buyurur:**

***"Nəfsimi ilahi vüslət səfərinə dəvət etdim. Bu məşəqqətli səfərdə nəfsim mənə qarşı gəldi. Mən də onu tərk edib*** *(nəfsin mənfi arzularını tərk edib)* ***Allah-Təalanın hüzuruna təkbaşına yollandım!".***[70]

[Ayeyi-kərimədə:

**"Nəfs (insana) pis işlər görməyi şiddətlə əmr edər"**,- buyurulur (Yusuf, 53). Mənəvi tərbiyədən keçərək kamilləşməmiş, xam və nadan nəfs heç vaxt Haqqa yaxın olmağı istəməz. İnsanı Rəbbinə sevdirib yaxınlaşdıracaq saleh əməllərdən, xidmət və çalışmalardan daim uzaq durar. Səfalətini səadət zənn edər. Gün keçirmək və üç günlük fani həyatda səfa sürmək arzusu ilə əbədi həyatını oda atmağa razı olar.

70. Əbu Nuaym, *Hilyə,* X, 36.

Ona görə də Haqqa gedən yolda insan üçün ən böyük maneə onun öz nəfsidir. Bitməz-tükənməz bayağı arzularıdır.

Bir gün **Bəyazid Bəstami həzrətləri**ndən soruşdular:

- Haqqa gedən yol necədir? Ona necə vasil olmaq olar? Həzrət bu cavabı verdi:

- *Sən yoldan qalxdığın zaman Haqqa vasil olarsan.*[71]

Yəni bu yolda sənin üçün ən böyük ayaq bağı olan nəfsinin istəklərinə qarşı gələ bilsən, onun tənbəlliyini, səfa düşkünlüyünü və qəflətini üstündən ata bilsən, ilahi hikmət və həqiqətlərdən agah olmağa başlayarsan. Ruhunu bayağı arzuların kəsavətindən azad etdiyin vaxt Haqqa yaxınlığın feyz və ruhaniyyətindən nəsiblənər, mərifətullah üfüqündə məsafə qət edərsən…

Ona görə də təsəvvüf nəfsaniyyəti kənarlaşdırmaq yoludur. Çünki nəfsaniyyət hər zaman və hər yerdə qulun qarşısına çıxar. Onu Haqqın yolundan uzaqlaşdırmaq üçün cürbəcür tələlər qurar.

Bu tələlərə düşməməyin yeganə çarəsi isə **"təqva"** zirehi geyinməkdir. Yəni nəfsi-

71. Prof. Dr. Süleyman Uludağ, *Bəyazid Bəstami* , səh. 186, TDV Yayınları, Ankara 1994.

nin bayağı arzularından uzaqlaşaraq Haqqa yaxınlığın könül feyzi ilə yaşamaqdır. Özünü haramlardan, şübhəlilərdən, batildən və şərdən mühafizə etməkdir.

Həmçinin buna müvəffəq olduqda da nəfsə bir pay çıxarmayıb, bütün mənəvi nemət və təcəlliləri Haqq-Təalanın bir lütfü bilməkdir. Heç vaxt "mən qazandım, mən nail oldum" deyərək qazancını ziyan etməməkdir. Əksinə, Rəbbinin lütfü olduğunu dərk etməkdir.]

**Bəyazid Bəstami  həzrətləri buyurur:**

***"Qul nəfsinin xətasını görüb xalqdan mədəd ummadığı vaxt Haqq onu himməti*** *(mənəvi qisməti, səyləri, dua və Allaha sığınması)* ***ölçüsündə və nəfsindən uzaqlaşdığı nisbətdə özünə yaxınlaşdırar."***[72]

[Hədisi-şəriflərdə buyurulur:

*"Dünyaya könül vermə ki, Haqq səni sevsin. İnsanların əlinə baxma ki, xalq səni sevsin".* (İbn Macə, Zöhd 1)

*"…Möminin izzəti insanlara möhtac olmamasındadır!".* (Hakim, IV, 360-361/7921)

Haqqa yaxınlığın ən mühüm addımları insanların sahib olduqları imkanlara

72. Prof. Dr. Süleyman Uludağ, *Bəyazid Bəstami ,* səh. 188, TDV Yayınları, Ankara 1994.

tamah salmamaq, onlara möhtac olmadığının şüurunda olmaq, nəfsi ehtiraslardan və həsəddən uzaqlaşmaqdır. Bunun üçün də qəlbin Allaha və axirətə imanın tələbi olan **"qənaət"**lə zənginləşib, ilahi təqdirə **"riza"** göstərərək səviyyə qazanması şərtdir.

Lakin möminin insanlara qarşı bu gözütoxluğu sadəcə maddi imkanlara məxsus olmamalıdır. Çünki insan bu həyatda maddi nemətlər kimi, hətta onlardan daha çox cəmiyyət çapında qəbul edilməyə, insanlar tərəfindən bəyənilməyə və təriflənməyə ehtiyac duyar.

Məhz bu məsələdə ifrata can atan xam nəfslərsə Allah üçün edilməli olan ibadət və əməlləri belə, fanilərin gözündə dəyər qazanmağa vasitə halına gətirərlər. Bu isə qəlbdəki ixlası zədələdiyi üçün əməllərin əcrini zay edər.

Hədisi-şərifdə də bildirildiyi kimi qiyamət günü əleyhinə hökm verilən ilk insanlar –zahirən- şəhid, alim və xeyriyyəçiliklə məşğul olan zənginlər olacaqdır. Lakin bu kəslər əməllərinə Allah rizası xaricində insanlar tərəfindən bəyənilmək niyyəti qarışdırdıqları üçün, yəni riyakarlıq etdiklərinə

görə Haqq-Təala onların bu əməllərini rədd edəcəkdir.[73]

Ona görə də möminin izzət və şərəfi əməllərini xalqa deyil, Haqqa bəyəndirmə cəhdinə bağlıdır. Əsl mömin özü haqqında insanların deyil, Allahın nə buyurduğuna əhəmiyyət verən kəsdir.

Çünki insanlara riyakarlıq etmək surəti ilə Haqqın deyil, xalqın nə dediyinə əhəmiyyət vermək ibadət və əməllərini Allaha təqdim etmək yerinə fanilərə satmaq hökmündədir. Bu isə Allah üçün işlənməli olan əməllərə faniləri də ortaq etməkdir. Halbuki tövhid əqidəsinin heç bir şəkildə ortaqlığa dözümü yoxdur.

Necə ki, ayeyi-kərimədə belə buyurulur:

**"Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər. Onlar** (namazlarında) **riyakarlıq edərlər".** (əl-Maun, 4-6)

**Hz. Peyğəmbər** ﷺ də əshabından:

- Diqqətlə qulaq asın. Haqqınızda Dəccaldan daha çox qorxduğum şeyin nə olduğunu deyimmi?,- deyə soruşmuş, onlar da:

- Buyur, ya Rəsulallah!,- dedikdə:

73. Bax. Müslim, İmarə 152

*"- Qorxduğum şey gizli şirkdir. Məsələn, namaza duran bir adam fikirləşin. Hansı ki, başqasının ona baxdığını hiss etdiyi üçün namazını a*ğır-ağır qılır",- buyurmuşdu. (İbn Macə, Zöhd, 21)

Bu gerçəyə əsaslanaraq **Həzrət Mövlana** da belə buyurur:

"Allah eşqi üçün çalış! Allah eşqinə xidmət et! İnsanların qəbul etməsi və ya rədd etməsi ilə nə işin var? Bu fani dünya bazarında sənə bol-bol qazanc gətirən müştəri olaraq Allah kafi deyilmi? Allahdan alacağının qarşısında insanların verəcəyi nədir ki?!

Elə isə gözünü və könlünü insanlardan gələcək təşəkkürlərə, iltifatlara deyil, Allahdan gələcək lütflərə dik!.."

İmam Şafei həzrətləri də belə nəsihət edir:

"Bütün insanları razı salmaq qeyri-mümkündür. Sən Allahla aranı düzəltməyə çalış! Bunu etdikdən sonra insanlara fikir verməl.."

Ona görə də arif insanlar Allah üçün etdikləri əməlləri heç bir dünyəvi mənfəətə dəyişməzlər. Onlar nə fanilərin tərifinə qovuşmaq arzusu, nə də fanilərin gözündən düşmək qorxusu ilə əməl edərlər. Onların

bütün qulluq, ibadət və xidmətləri yalnız Allahın rizası üçündür.

Rəvayət edildiyinə görə **Həzrət Fatimə** və **Həzrət Əli** bir gün özləri ac olsalar da əllərindəki yeməyin üçdəbirini qapıya gələn yoxsula, üçdəbirini yetimə, qalanını da bir əsirə vermişdilər. Başqa bir rəvayətə görə isə üç gün ardarda iftar edəcəkləri yeməyi yoxsula, yetimə və əsirə verib özləri su ilə iftar etmişdilər. Onlara infaq edərkən də ayədə bildirildiyi kimi:

**"Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən (bu ehsan müqabilində) nə bir mükafat, nə də bir təşəkkür istəyirik"** (əl-İnsan, 9) demişdilər. Beləliklə həm möhtacları minnət altında əzilməkdən xilas etmiş, həm də əməllərinin ixlasını qorumağa çalışmışdılar.

Həqiqi mömin əməllərinin savabını itirməmək qayğısı ilə hətta fani iltifatlardan belə uzaqlaşan insandır. Bütün insanların tərifini də alsa, buna əhəmiyyət verməz, Haqq qatında qiymətinin nə qədər olduğuna baxar.

**Həzrət Əbu Bəkr** عليه السلام bir adam tərəfindən təriflədikdə dərhal Allaha dua edərək belə deyərmiş:

"Allahım, sən məni məndən daha yaxşı tanıyırsan. Mən də özümü onlardan daha

yaxşı tanıyıram. Allahım, məni onların zənn etdiyindən daha xeyirli et! Onların bilmədiyi xətalarımı bağışla! Söylədikləri sözlər səbəbi ilə də məni hesaba çəkmə!".[74]

Həmçinin Allah yolunda çalışan bir mömin bütün insanlar tərəfindən xor görülsə belə buna əhəmiyyət verməyən, yalnız Allahın qatında zəlil vəziyyətə düşmə qorxusu ilə qəlbi titrəyən kəsdir.

Necə ki, **Rəsulullah** ﷺ də təbliğə başladığı ilk günlərdə təbəssümlə deyil, tikanlarla, təhqirlərlə qarşılaşdı. Ən ağır əzab-əziyyətə məruz qaldı. Kəbədə namaz qılarkən üstünə dəvə içalatı qoyuldu. Uhud döyüşündə mübarək dişi qırıldı. Bir çox seçkin səhabəsi şəhid oldu. Taifdə daş-qalaq edildi. Lakin Rəhmət Peyğəmbəri bu kimi əziyyətlərə əhəmiyyət vermədi. Rəbbinin əmr etdiyi yolda səbirlə addımlamağa davam etdi. Taqəti kəsiləndə də fanilərdən yardım istəmədi.

Taifdə rəva görülən ağır zülm qarşısında mübarək əllərini ilahi dərgaha açaraq belə dua etdi:

*"Allahım, gücümün zəiflədiyini, çarəsizliyimi, insanların nəzərində xor görülməmi Sənə ərz edirəm. Ey mərhəmətlilərin ən mərhəmətlisi, əgər mənə qarşı qəzəbli deyilsənsə, çəkdiyim möhnət və*

74. Süyuti, *Tarixul-Xuləfa*, səh. 104.

*bəlaların heç bir əhəmiyyəti yoxdur!..”* (İbn Hişam, İİ, 29-30; Heysəmi, Vİ, 35)

Bunun nəticəsində könüllər fəth olunduqda və insanlar qrup-qrup İslama girəməyə başladıqda o yenə gül üzünü dünyaya deyil, axirətə çevirdi. İnsanların və dünyanın iltifatını deyil, Rəbbinin rizasını, məhəbbət və yaxınlığını seçdi.

Ümməti-Muhammməd olan biz də **Rəsulullah**ın ﷺ izindən gedərək ilahi əmrlərin yerinə yetirilməsi xüsusunda qınayanın qınamasına əhəmiyyət verməməliyik. Əməllərimizə fani mənfəət düşüncələrinin kölgəsini belə düşürməməyə çalışaraq “hasbətən lillah”, yəni yalnız və yalnız Allah üçün qulluq etməliyik.]

**Bəyazid Bəstami  həzrətləri buyurur:**

***“Otuz ildir heç tərk etmədiyim bir adətim var:***

***Nə vaxt Allahı zikr etmək istəsəm, Onun zikrinə təzim etmək üçün ağzımı və dilimi yaxşı-yaxşı yuyuram”.***[75]

[Rütbə və vəzifəsi böyük olan bir adamı ziyarət edərkən üst-başımıza və hərəkətlərimizə diqqət etdiyimiz kimi Aləmlərin Rəbbi ilə münasibətimizdə də hədsiz dərəcədə

75. Əbu Nuaym, *Hilyə,* X, 35.

diqqətli və ədəbli olmalıyıq. Kimin hüzuruna çıxacağımızın idrakı içində olmalıyıq.

Bu mənada ayeyi-kərimədə buyurulur:

**"Ey Adəm oğulları! Hər bir ibadət vaxtı** (namaz qılarkən, məscidə gedərkən və ya təvaf edərkən) **gözəl libaslarınızı geyin!".** (əl-Əraf, 31)

Hədisi-şəriflərdə də namazdan əvvəl misvakdan istifadə etmək, gözəl ətirlə ətirlənmək, cümə namazından əvvəl qüsl almaq tövsiyə edilir.

Namazdan əvvəl ilahi hüzura duracağımız üçün ilk növbədə dəstəmaz alıb təmizlik və hazırlıqla məşğul olduğumuz kimi, Haqq-Təala ilə bərabərlik sayılan zikrə də maddi-mənəvi təmizliklə hazırlıq görməyimiz vacibdir. Çünki belə bir təmizlik Allaha təzim duyğumuzun nümayişidir.

Əməlləri məqbul edən də onların kəmiyyətindən daha çox keyfiyyətidir. Yəni çoxluğu deyil, nə qədər ixlas, xüşu, ədəb, hörmət və təzim ilə əda edildiyidir.

Nəql olunduğuna görə İbrahim bin Ədhəm həzrətləri bir gün sərxoşluqdan bir küncdə yatan əyyaşın ağzını yumuşdu. Nə üçün belə etdiyini soruşanlara da bu cavabı vermişdi:

- Əgər Allahı zikr etmək üçün yaradılan dili və ağzı kirli halda qoysaydım, hörmətsizlik olardı.

Sərxoş ayıldığı zaman ona, Xorasan zahidi İbrahim bin Ədhəmin ağzını yuduğunu dedilər. Bu haldan utanan əyyaşın qəlbi qəflətdən ayıldı və:

- Elə isə mən artıq tövbə etdim,- dedi.

Bu tövbəyə vəsilə olan İbrahim bin Ədhəm həzrətlərinə yuxuda Allah qatından belə bir nida gəldi:

"Sən bizim üçün onun ağzını yudun. Biz də sənin üçün onun qəlbini yuduq".

Bəyazid Bəstami həzrətlərinin zikrdən əvvəl riayət etdiyi ağzı yumaq kimi gözəl adətinin maddi və mənəvi cəhətləri var:

Maddi olaraq; dəstəmaz almaq və ya dəstəmazlı ikən ağzı su ilə yumaqdır.

Mənəvi olaraqsa; Rəbbimizin razı olmadığı, hətta qəzəbləndiyi kirlərdən də ağzımızı və qəlbimizi təmizləməkdir. Bunların da başında yalan, qeybət, iftira, dedi-qodu, həyasız və boş sözlər gəlir.

**Rəsulullah** ﷺ buyurur:

*"İnsan oğlunun danışdıqları lehinə deyil, əleyhinədir. Lakin yaxşılığı əmr etmək və ya pis-*

*likdən çəkindirmək üçün sərf etdiyi sözlər bundan müstəsnadır".* (İbn Macə, Fitən, 12)

*"Çox danışmaqdan çəkin! Söylənən söz zikrullah deyilsə, qəlbi öldürər. Lakin Allahı çox zikr et. Məhz bu, qəlbi dirildər". (Əli əl-Müttəqi, № 1896)*

Boş və faydasız sözlər insanın mənəviyyatına zərər verirsə, yalan, iftira, dedi-qodu, qeybət kimi çirkin sözlərin möminin daxili dünyasında nə qədər böyük mənəvi dağıntıya səbəb olacağını düşünmək lazımdır.

Məhz ona görə də **Rəsulullah** ﷺ:

*"Allaha və axirət gününə iman edən kəs ya xeyir söyləsin, yaxud da sussun!"*,- buyurmuşdur. (Buxari, Ədəb, 31, 85; Müslim, İman, 74)

Xülasə, zikrin ləzzətinə nail ola bilmək üçün qəlbi və dili tövbə və istiğfarla təmizləyib onu daim pis sözlərdən qorumaq lazımdır. Belə bir təqva səviyyəsi qazanan qəlb onsuz da daimi zikr halına qovuşmuş olur.]

**Bəyazid Bəstami  həzrətləri buyurur:**

***"Dünyanın nə qiyməti var ki, ona qarşı zahid olmaqdan söz açılsın!"***[76]

[Mömin dünyaya baxış tərzini Quran və Sünnə ölçüləri ilə tənzim etdiyi təqdirdə ona qarşı zahid davranması, yəni qəlbən ondan

76. Abbas, *Əbu Yezid,* s. 90.

uzaqlaşması tamamilə təbii haldır. Qəlbən dünyadan uzaqlaşanların nəzərində dünya xeyli kiçilərək əhəmiyyətini itirər.

Çünki Allah qatında dünyanın bir milçəyin qanadı qədər dəyəri olmadığını bilən, axirətin sonsuzluğu qarşısında dünya həyatının dəryadan bir damla hökmündə olduğunu idrak edən bir möminin fani dünya nemətləri üçün Kainatın Xaliqini qəzəbləndirməsi, keçici zövqlər naminə əbədi səadətini təhlükəyə atması düşünülə bilməz.

Görən gözlər üçün bu kainatdakı ümumi mənzərə fanilikdir. Əbədi səadətə nail olmaq istəyən kəs fani cazibələrə aldanmaz.

**Mövlana həzrətləri** dünyanın fani cazibələrinə aldananlara belə səslənir:

*"Ey yağlı-ballı yeməklər və nəfis qidalar görüb dodağını dişləyən; qalxıb ayaqyoluna get, onların aqibətini orada gör!*

*De ki, sənin o gözəlliyin, boşqabdakı ləzzət, lətafət və gözəl qoxun nə oldu?*

*Cavabında deyər ki, sənin saydıqların qönçə, mən də sənə qurulan tələ idim. Sən tələyə düşən kimi qönçə saralıb-soldu və xoşagəlməz hala düşdü"*.

Biz də günün birində əriyib solacaq, tör-töküntüyə dönəcək dünya nemətləri ilə

imtahan edilməkdə olan axirət yolçularıyıq. Elə isə bizim dünya adlı qonaq evində yerli ədası ilə oturmağımız və qonaq olduğumuz dünyanın *nəfsani bərbəzəyi ilə həddən artıq məşğul olmağımız qədər böyük aldanış təsəvvür edilə bilməz.*

İmam Şafei həzrətləri bu cür aldanışa düçar olmaqdan qorunmağımız üçün belə nəsihət edir:

*“Karvanların səfər əsnas***ında ev inşa etmələri ağıllı hə**r*əkət deyil.*

**İlğımın onu görənlərə xəyanət etməsi və ümidlərini boşa çıxarması kimi, dünyəvi arzu və istəklər də bir çoxlarını pərişan etmişdir…**

*Allahın ağıllı bəndələri dünyanın boş istək və arzularına aldanmayanlardır.*

*Onlar həmçinin dünyanın və axirətin bəla və imtahanlarından qorxarlar. Dünyaya ibrətlə nəzər edərlər və bilərlər ki, o fani olan birinə nə yar olar, nə vətən!..”*

Dünyaya qarşı zahid olmaq onun sevgisini qəlbə qoymamaqdır. Qəlbi dünya nemətlərinə xəzinə etməməkdir. Əksinə, dünyadan əl çəkərək özünün və məsul olduğu insanların məişətini təmin etməkdən boyun qaçırmaq deyil.

**Mövlana həzrətləri** belə deyir:

*"Onu bil ki, dünya pul-para, qarşı cins, geyim-keçim, ticarət deyil, dünya Allahdan qafil olmaqdır…"*

Yəni qəlblər Allahla olduqdan sonra dünya ilə məşğul olmağın heç bir zərəri yox-dur.

Necə ki, səhabələr arasında **Hz. Əbu Bəkr, Hz. Osman, Hz. Abdurrahman bin Əvf** kimi varlı insanlar da vardı. Lakin onlar könüllü surətdə sadə və mütəvazi yaşamağı seçərək dünya sərvətini əsla qəlblərinə yaxın buraxmırdılar. Ən zəruri ehtiyacları xari-cindəki dünya malını Allah və Rəsulunun əmri istiqamətində xərcləyirdilər. Beləliklə Allahın rizasını qazanmaq uğrunda əbədi səadət sərmayəsinə çevirirdilər.

Çünki onlar bu ayeyi-kərimənin şüur və idrakı içində yaşayırdılar:

**"Allahın sənə verdiyindən özünə axi-rət qazan** (malını Allah yolunda sərf et)**. Dünyadakı nəsibini də unutma. Allah sənə** (sərvət verməklə) **yaxşılıq etdiyi kimi, sən də** (varından yoxsullara, qohum-əqrəbaya xərcləməklə) **yaxşılıq et".** (əl-Qasas, 77)

Əsil mömin hər nə qədər dünyəvi xidmət və vəzifələrlə məşğul olsa da daima

axirət yolunun yolçusu olduğu şüuru içində Rəbbinin hüzuruna səlim qəlblə çıxmaq təlaşında olan kəsdir.

Bu həqiqətlərdən uzaq qalaraq, bütün əməyi, qazancı, dərdi, təlaşı nəfsani və dünyəvi qayələrdən ibarət olan qafillərinsə;

“عَامِلَةٌ نَاصِبَةٌ“ : **Çalışmış,** (lakin boş yerə) **yorulmuşdur.”** (əl-Ğaşiyə, 3) ayəsində buyurulduğu kimi axirətdə əllərinə əzab dolu peşmanlıqdan başqa heç nə keçməyəcək.]

**Rəbbimiz zati-alisinin və sevdiklərinin məhəbbətini qəlblərimizin tükənməz xəzinəsi etsin. Sevərək razı qaldığı qullarının qəlbindən nəsiblənməyi hər birimizə qismət etsin. Biz aciz bəndələrini məğfirət, mərhəmət, məhəbbət və rizasından məhrum etməsin…**

**Amin!..**

HAQQ DOSTLARINDAN HİKMƏTLƏR

# Bəyazid Bəstami

RƏHMƏTULLAHİ ALEYH

5

*Təmiz qabda olan saf və şəffaf suya bir damcı nəcasət düşdükdə suyun bütün paklığını və qiymətini itirməsi kimi Allahın qullarını xor görmək, beləliklə təkəbbürlənmək qulun Haqq qatındakı dəyərini yox edər.*



# Bəyazid Bəstami (q.s) -5-

**Bəyazid Bəstami həzrətləri buyurur:**

***"Xalqa avam gözü ilə baxan, yəni onları xor görən kəs onlardan nifrət edər. Xaliqin nəzəri ilə baxan isə onlara mərhəmət edər".***[77]

Məşhur ifadə ilə **"Yaradandan ötrü yaradılanı sevmək"** və ya **"Xaliqin şəfqət nəzəri ilə məxluqata baxış"** həssaslığı kamil möminlərin ən ideal düsturudur. Çünki imanın ilk meyvəsi mərhəmətdir.

Allah-Təala Həzrət Peyğəmbərin yanındakı möminlərin vəsflərini bəyan edərkən **"onlar bir-birlərinə qarşı son dərəcə mərhəmətlidirlər"**[78] buyurur. Nəticə olaraq möminlərə qarşı təkəbbürlənmək və onları xor görmək könüldəki mərhəmət nöqsanlığının və vicdanın zədələnməsinin ən bariz nümunəsidir.

77. Səhləgi, *ən-Nur*, səh. 109.
78. Bax. əl-Fəth, 29.

Allahın qullarını xor görmək və onlara təhqiramiz nəzərlə baxmaq ilk növbədə insanın həddini bilmədiyinin ifadəsidir. Çünki insan həddini bilər və özünü tanıyarsa, yəni var olmaq və həyatını davam etdirmək üçün daima Rəbbinin lütfünə möhtac olduğunu layiqincə idrak edə bilərsə, acizliyindən sanki islanmış kağıza dönər. Nə Rəbbinə, nə də Onun qüdrət və sənətinin möhtəşəm əsərləri olan məxluqata qarşı təkəbbürlənməyə macalı qalmaz.

**Həzrət Əlinin** رضي الله عنه ifadəsi ilə:

*“Öyünmək Adəm oğluna necə yaraşa bilər?! Əvvəli nütfə, sonu isə leşdir. Yediyi ruzisini yarada bilmədiyi kimi özünü həlakdan da qurtara bilməz”.*

Allah-Təalanın ilahi qüdrət və əzəməti qarşısında acizlik və heçliyinin fərqində olan bir mömin əsla qürur, təkəbbür və ücuba meyl etməz.

Təmiz qabda olan saf və şəffaf suya bir damcı nəcasət düşdükdə suyun bütün paklığını və qiymətini itirməsi kimi Allahın qullarını xor görmək, beləliklə təkəbbürlənmək qulun Haqq qatındakı dəyərini yox edər.

Ayeyi-kərimədə buyurulduğu kimi:

**“Hər kim izzət istəyirsə,** (bilsin ki, dünyada da, axirətdə də) bütün izzət ancaq Allaha məxsusdur”. (əl-Fatir, 10)

Dolayısı ilə qul təvazö, heçlik və acizliyinin idrakı içində saleh əməllər işləyərək Rəbbinə nə qədər yaxınlaşa bilərsə, Haqq qatında o nisbətdə izzət qazanar. Allah təvazökar qullarını ucaldar.

Ayeyi-kərimədə buyurulur:

**“Allah qatında ən dəyərli olanınız, ən çox təqva sahibi olanınızdır”.** (əl-Hucurat, 13)

Bir sözlə, Allah qatında yeganə üstünlük **“təqva”** ilədir. Təqva isə Allahın riza və məhəbbətindən məhrum qalmaq qorxusu və əndişəsi içində haram və şübhəlilərdən diqqətlə çəkinib bütün gücü ilə saleh əməllərə, ibadət və itaətə, Allah yolundakı xidmətlərə can atmaqdır. Həmçinin təqva nəfsani arzulardan sıyrılaraq ruhani istedadları inkişaf etdirmək və ilahi müşahidə altında olduğumuzu qəlbdə daimi şüur və idrak halına gətirə bilməkdir.

Qəlblərdəki təqva duyğusunun kimdə daha yüksək olduğunu, dolayısı ilə kimin daha xeyirli olduğunu isə yalnız Allah-Təala bilir. Ona görə də Rəbbimiz ayeyi-kərimədə belə xəbərdarlıq edir:

**"Ey iman gətirənlər! Bir qövm digərini lağa qoymasın. Ola bilsin ki, onlar** (lağa qoyulanlar) **o birilərindən** (lağa qoyanlardan Allah yanında) **daha yaxşı olsunlar."** (əl-Hucurat, 11)

**Həzrət Aişə** ﵂ deyir:

"(Bir dəfə Həzrət Peyğəmbərə:)

– Ey Allahın Rəsulu Safiyyənin qısaboylu olması sənə kifayətdir,- deyərək Safiyyəni xor gördüm. **Rəsulullah** ﷺ:

– *"Ey Aişə, elə bir söz dedin ki, əgər o söz dənizə qarışsaydı, suyunu pozardı",- buyurdu".* (Əbu Davud, Ədəb, 35/4875; Tirmizi, Qiyamət, 51)

İnsanları xor görmək sözlə ola biləcəyi kimi müxtəlif hal və hərəkətlərlə, qaş-göz işarəsi ilə də ola bilər. Haqq-Təala bu hərəkəti də aşağıdakı ifadə ilə qadağan etmişdir:

**"**(Dalda) **qeybət edib** (üzdə) tənə vuran hər kəsin vay halına!". (əl-Huməzə, 1)

**Rəsulullah** də belə buyurmuşdur:

**"Allah-Təala mənə vəhy etdi ki: "Bir-birinizə qarşı elə təvazökar olun ki, heç kim digərinə qarşı həddi aşaraq zülm etməsin. Heç kim başqa birinə qarşı təkəbbürlənib lovğalıq etməsin".** (Müslim, Cənnət, 64; Əbu Davud, Ədəb, 40)

**Bəyazid Bəstami həzrətləri buyurur:**

***"Heç bir günah müsəlman qardaşlarını saymamağın və onları xor görməyin verdiyi zərər qədər insana zərər verə bilməz".*[79]**

Necə ki, hədisi-şərifdə də:

*"İnsana günah olaraq müsəlman qardaşını xor görməsi kifayətdir"*,- buyurulur. (Müslim, Birr, 32)

Bu nəbəvi gerçəyə baxmayaraq din qardaşlarını xor görənlər böyük zərərə düçar olmaqdan qurtula bilməzlər. **Rəsulullah** başqa bir hədisi-şərifində:

"Qəlbində zərrə qədər lovğalıq olan kəs cənnətə girə bilməz",- buyurmuşdur. (Müslim, İman, 147)

Din qardaşını xor görmək əslində insanın Haqq qatında öz qiymətini aşağı salmasıdır. Bu səbəblə mömin heç kimi özündən aşağı səviyyədə görməməlidir.

Bu xüsus o qədər mühümdür ki, nəinki bir insana, hətta digər məxluqata da aşağılayıcı gözlə baxmaq arif insanların nəzərində ilahi qəzəbi cəlb edən günahlardan sayılır.

79. Prof. Dr. Süleyman Uludağ, *Bəyazid Bəstami* , səh. 190, TDV Yayınları, Ankara 1994.

Rəvayətə görə **Həzrət Nuh** yaraları irinləmiş bir köpəyi görüb üzünü çevirmişdi. Haqq-Təala ona:

-"Ey Nuh, məndə qüsur görürsən? Onu mən yaratmışam",- deyə xəbərdarlıq etdi.

**Rəsulullah**ın ﷺ də heyvanlara əziyyət etməməklə bağlı xəbərdarlıqlarının ardından buyurduğu:

*"…Minilən elə heyvan var ki, üstünə minəndən daha xeyirlidir və Allahı ondan daha çox zikr edir".*[80] (Əhməd, III, 439) bəyanı da, heyvanlara belə, necə yanaşmalı olduğumuzu açıq-aşkar izah edir.

Məhz bu kimi həssas ölçülərlə mənən kamilləşərək ilahi əxlaq ilə əxlaqlanan möminlər Haqq-Təalanın rəhmani baxışları ilə məxluqatı seyr edərlər.

Necə ki, **Bəyazid Bəstami həzrətləri** bir gün müridləri ilə dar bir yolla gedərkən qarşılarına bir köpək çıxır. O Ariflər Sultanı geri çəkilərək köpəyə yol verir. Müridlərindən biri ürəyində:

80. İnsan öz iradəsi ilə zikr edir. Heyvanların zikri ise qeyri-iradidir. Ayeyi-kərimədə buyurulur:
"Yeddi göy, yer və onlarda olanlar (bütün məxluqat) Allahı təqdis edir. Elə bir şey yoxdur ki, Allaha tərif deyib Ona şükür etməsin, lakin siz onların (dillərini bilmədiyiniz üçün) təqdisini anlamazsınız…" (əl-İsra, 44)

"Allah-Təala insanı üstün və hörmətə layiq yaratdığı halda Şeyx Bəyazid müridlərini də geri çəkib bu köpəyə yol verdi. Necə də qəribədir!",- deyir.

Bəyazid Bəstami  həzrətləri müridinin keçirdiyi halı hiss edərək belə xəbərdarlıq edir:

"Qəlbimdə elə bir hal baş verdi ki, sanki o köpək hal dili ilə mənə: "Mənim nə qüsurum var ki, əzəldə köpəklik libasını əynimə geydirdilər?! Sən nə etdin ki, sənə ariflər sultanı xələti geydirdilər?! Nədir bu halın sirri?",- dedi. Məhz bu səbəblə ona yol verdim".[81]

Xülasə, bir mömin Allahın hər hansı bir məxluqunu gördüyü zaman "mən onun yerində, o da mənim yerimdə ola bilərdi", deyərək Allahın bəxş etdiyi lütf və ehsanlarını təfəkkürlə, şükrünü artırmalıdır. Öyünmək yerinə həmd etməlidir. Nemət və nailiyyətləri nəfsindən bilmə qəflətindən qurtulub o nemətlərin əsl sahibi olan Allaha şükür etməlidir.

**Bəyazid Bəstami  həzrətləri buyurur:**

***"İnsanların Haqqa ən yaxın olanı xalqın cəfalarına qatlanan, onların ehtiyaclarını***

81. Əttar, *Təzkirə*, səh. 179.

***mərhəmətlə yüklənən və əxlaqı ən gözəl olandır".***[82]

Mömin öz qurtuluşunun başqalarının da qurtuluşuna xidmət etməkdən keçdiyini heç vaxt unutmamalıdır. Yəni müsəlman eqoist olmamalı, əksinə, qayğıkeş ruha sahib olmalıdır. Ciddi məsuliyyət duyğusu ilə din qardaşlarını, hətta imkanı çərçivəsində bütün məxluqatı özünə təhkim edilmiş bilməlidir.

Bir gün **Rəsulullah** ﷺ:

*-"Nəfsim qüdrət əlində olan Allaha and içirəm ki, bir-birinizə mərhəmət etmədikcə cənnətə girə bilməzsiniz",-* buyurmuşdu. Əshabi-kiram:

-"Ya Rəsulallah, hamımız mərhəmətliyik",- dedikdə Allah Rəsulu ﷺ:

*-"(Mənim qəsd etdiyim) mərhəmət sizin başa düşdüyünüz kimi yalnız bir-birinizə olan mərhəmət deyil. Əksinə, bütün məxluqata şamil olan mərhəmətdir, (bəli) bütün məxluqatı əhatə edən mərhəmət!..",- buyurdu.* (Hakim, IV, 185/7310)

Rəbbimiz müsəlmanların birlik və bərabərliyini, xeyir işlərdə yarışaraq yardımlaşmalarını, bir sözlə, ictimailəşmələrini arzu edir. Mömin bu şüurdan uzaq qalaraq yaşanan fərdi müsəlmanlığın özünü qurtarmağa

82. Əttar, *Təzkirə,* səh. 199.

kifayət etməyəcəyini ağlından çıxarmamalıdır. İnsanlarla ülfətdən doğacaq bir sıra külfət və zəhmətləri də Haqqın rəhmət, məğfirət və lütflərinə vəsilə saymalıdır. Bütün bunları səbir və riza ilə qarşılamalı, hətta bütün bunları özü üçün nemət bilməli, beləliklə zəhməti rəhmətə çevirməlidir.

**İmam Qəzali həzrətləri** Allah üçün insanların əza və cəfalarına qatlanmağın fəzilətinə dair bu hikmətli qissəni nəql edir:

"Həkimlərdən (filosof) biri hikmətə dair 360 əsər yazmış və bu sayədə Allaha yaxınlaşdığını zənn etmişdi. Allah-Təala zamanın peyğəmbərinə belə vəhy etdi:

-"Filankəsə söylə, yer üzünü nifaqla doldurdu. Mən onun nifaqından heç nə qəbul etmərəm!".

Bunu eşidən adam təkbaşına bir mağaraya çəkilərək ibadət etməyə başladı və artıq Allahın rizasına nail olduğunu fikirləşdi.

Allah-Təala bu dəfə peyğəmbərinə:

- "Ona de, insanların arasına girib onların əziyyətlərinə qatlanmadıqca rizama nail ola bilməz",- deyə vəhy etdi.

Həmin adam bazara çıxdı, insanların arasına qarışdı, onlarla birlikdə gəzib-dolaş-

dı, oturdu, yeyib-içdi (Onların dərdinə şərik oldu, onlara qarşı məsuliyyətini dərk etdi). Bu zaman Allah-Təala peyğəmbərinə belə vəhy etdi:

-"Ona xəbər ver, indi mənim rizama nail oldu". (*Əhya*, II, 610-611)

Yəni İslam özünü cəmiyyətdən təcrid edərək və qabığına çəkilərək yaşanan fərdi bir din deyil. Əksinə, cəmiyyət halında yaşanan həyat dinidir.

Əsas məsələ cəmiyyətlə iç-içə olub, ailə, qohum-əqrəba, qonşuluq münasibətlərindən tutmuş ticarət və iş həyatına qədər bütün bəşəri münasibətlərdə İslamın gözəlliklərini hal, davranış və şəxsiyyətində sərgiləyə bilməkdir. Beləliklə Allahın yer üzündəki şahidi və dininin təmsilçisi ola bilməkdir. Bu xüsusda möminin qarşılaşacağı çətinlik və imtahanlar onun könül dünyası üçün sanki bir təzkiyə (təmizlənmə), günahlara kəffarə və dərəcələrin yüksəlməsinə vəsilədir.

Haqq dostları da insanları irşad edə bilmək üçün xalqın arasına qarışmış, bu yolda cahillərdən, nadanlardan, dilbilməz kobud insanlardan gələn əza və cəfalara Allah üçün dözərək səbir etməyin axirətdəki mükafatına nail olmağı hədəfləmişlər.

**Rəsuli-Əkrəm** ﷺ də Allah yolunda sadəcə qeyri-müsəlman və münafiqlərdən deyil, İslamın nəzakət və zərifliklərini hələ qavramamış bəzi müsəlmanlardan da əks olunan kobudluqlara böyük səbirlə dözmüşdür. Necə ki, səhradan gələn bədəvilərin kobud tərzdə :

"Ey Muhamməd, ey Muhamməd!",- deyərək dəfələrlə qışqırıb çağırmalarına baxmayaraq hər dəfə mülayim tərzdə:

-"Buyurun, nə istəyirsiniz?",- deyə cavab vermişdir.[83]

Hətta Həzrət Peyğəmbərin insanlarla yaxın olub onların əziyyətlərinə məruz qalmasından iztirab çəkən əmisi **Həzrət Abbas** رضي الله عنه Fəxri-Kainatdan yüksək bir taxtda oturub heç olmasa bəzi sıxıntılardan qurtulmasını istəmişdi. **Rəsulullah** ﷺ isə:

-*"Xeyr! Allah məni aralarından götürüb hüzura qovuşduracağı günə qədər onların içində olacağam. Qoy topuqlarımı tapdalasınlar, patlarımı dartsınlar, toz qaldırıb məni narahat etsinlər!"*,- buyurdu. (İbn Sad, II, 193; Heysəmi, IX, 21)

Möminlərə də belə xəbərdarlıq etdi:

83. Bax. Müslim, Nüzur, 8; Əbu Davud, Əyman, 21/3316; Tirmizi, Zöhd, 50; Əhməd, IV, 239.

*"İnsanların arasına qarışıb onların əziyyətlərinə qatlanan bir müsəlman onlara qarışmayıb əziyyətlərinə qatlanmayandan daha xeyirlidir".* (Tirmizi, Qiyamət, 55/2507)

**Bəyazid Bəstami hәzrətləri buyurur:**

***"Aclıq bulud kimidir. İnsan az yeməyə riayət edərsə, qəlbi hikmət yağışları yağdırmağa başlayar".***[84]

Təfəkkür, ibrət və hikmət aclıq və hüzn halında daha asan əldə edilir. Çünki mədə çox dolanda təfəkkür uyuşur, könlün həssaslıq və riqqəti koralır.

Bu hadisə aclıq və ya toxluğun qəlbdəki təsirini izah etmək baxımından nə qədər hikmətlidir:

Misirdə şiddətli qıtlıq hökm sürdüyü günlərdə **Yusifdən** عليه السلام soruşdular:

- Sən dövlətin xəzinələrinə hökm edən idarəçisən. Nə üçün özünü ac saxlayırsan?

O isə bu cavabı verdi:

- Qarnım tox olarsa, acların halını dərk edə bilməməkdən qorxuram".

84. Əttar, *Təzkirə,* s. 198; Hani, *Hədaiq,* s. 319.

Çox yeməyin qəlb aləmi üzərindəki təsirinə dair Əbu Süleyman Darani (q.s) belə deyir:

"Hər şeyin bir pası var. Qəlbin də pası çox yeməkdir. Kim çox yeyərsə, altı bəla ilə qarşılaşar:

1. Qıldığı namazdan həzz almaz.

2. Unutqan olar.

3. Şəfqət və mərhəməti azalar. Çünki özü tox olduğu üçün hamını tox zənn edər.

4. İtaət etmək xüsusunda tənbəllik edər.

5. Şəhvəti qalib olar.

6. Müsəlmanlar məscidə gedəndə o ayaqyoluna gedər".[85]

Hər işdə bizə nümunə olan Rəsulullah ﷺ və əshabı da acmadan yeməz, yedikləri zaman da tam doymazdılar. Boğazlarından keçən loğmaların zikrini duyacaq qədər könül feyzi içində yaşayardılar.

**Allah Rəsulu** ﷺ buyurmuşdur:

*"...Əgər bir adamın mütləq çox yeməsi lazımdırsa, mədəsinin üçdə birini yeməyə, üçdə*

85. *Təzkirətul-Övliya*, s. 89-90, Erkam Yayınları, İstanbul, 1984.

*birini suya, üçdə birini də nəfəsinə ayırsın!”.* (Tirmizi, Zöhd, 47)

**Həzrət Aişə** ﵂ **anamızın** ifadəsi ilə:

*“Rəsullulaın* ﷺ *ailə üzvləri Mədinəyə gəldikləri gündən vəfat etdiyi ana qədər üç gün arxa-arxaya buğda çörəyi ilə qarnını doydurmadı”.* (Müslim, Zöhd, 20)

**Rəsulullah** ﷺ istəsəydi Mədinədə rifah səviyyəsi ən yüksək həyat onun olardı. Çünki qənimətlərin beşdə biri Allahın əmri ilə Həzrət Peyğəmbərə ayrılmışdı. Həmçinin ona saysız-hesabsız hədiyyələr gəlirdi.

Lakin Allah Rəsulu heç bir məcburiyyəti olmadığı halda gələn bu qənimət və hədiyyələri dərhal əshabi-suffəyə və möhtaclara paylayar, ondan yalnız kifayət miqdarını evinə ayırardı. Hətta evinə ayırdığını da daha sonra gələn başqa kasıblara verdiyi vaxtlar olurdu. Yüksək məsuliyyət və mərhəməti səbəbi ilə ümməti ac və möhtac vəziyyətdə ikən rahatlıq tapmazdı.

Həmçinin **Rəsulullah** ﷺ bəzən “visal orucu” tutardı. İftar etmədən bir neçə gün ard-arda tutulan bu oruc yalnız Peyğəmbərə məxsus idi. Gücləri çatmayacağı üçün ümmətinə bunu qadağan etmişdir.

Az yeməyin və oruc tutmağın nəfsi cilovlaması və ruhaniyyəti inkişaf etdirməsi səbəbi ilə peyğəmbərlər də nübüvvətin ruhaniyyətinə orucla hazırlanmışdılar. Ruhi inkişafın zirvəzinə çatanda sanki insanlıq aləmindən uzaqlaşmış və mələklərə məxsus vəsflər təcəlli etməyə başlamış, beləliklə də qəlbləri və zehinləri ilahi vəhyə hazır hala gəlmişdir.

Necə ki, **Həzrət Musa** عليه السلام Allah-Təala ilə danışmadan əvvəl qırx gün "visal orucu", yəni iftarsız oruc tutmuşdur.

Hz, İsa da İncildən ilk kəlam eşidənə qədər qırx gün oruc tutmuşdur.

**Bəyazid Bəstami  həzrətləri:**

***"Nə üçün aclığı mədh-səna edirsən?" deyənlərə:***

***"Çünki, əğər Firon ac olsaydı, (acizliyini hiss edər): "Ən böyük Rəbbiniz mənəm!"[86] deyə bilməzdi".[87] -deyə cavab verdi.***

Nəfsin azğınlıqlarını cilovlamağın ən asan yolu onu aclıqla tərbiyə etməkdir. İnsan tox ikən, sağlam ikən, güc-qüvvəsi yerində ikən özünü ehtiyacdan uzaq, qüsursuz və

86. ən-Naziat, 25.
87. Prof. Dr. Süleyman Uludağ, *Bəyazid Bəstami* , səh. 189.

nöqsansız görür. Acizliyini unudaraq lovğalanmağa başlayır.

Bunun əksinə, xəstə, kasıb, zəif və möhtac halda ikən lovğalanıb təkəbbürlənməyə macalı qalmaz. Qul acizliyini ac olanda daha yaxşı idrak edər. Nemətlərin qədrini bilər. Haqq-Təalaya həmd və şükür duyğuları artar.

Hətta bu səbəblə bəzi təriqətlərdə "riyazət" və "mücahidə" üsulları içərisində nəfsin istəklərindən əl çəkib, istəmədiklərinə yönəlmək surəti ilə ruhani istedadların inkişaf etdirilməsi nəzərdə tutulur.

Elə isə əsl məharət möminin zəif və aciz anlarında olduğu qədər gülcü, varlı və sağlam zamanlarında da özünü Rəbbinin hüzurunda aciz görə bilməsidir. Çünki yağış sularının qaranlıq və alçaq yerlərdə toplanması kimi ilahi lütf və ehsanlara nail olmaq istəyən möminlər də heçlik və acizliklərinin idrakı içində, alçaqkönüllü və mütəvazi olmalıdırlar.

İnsana acizliyini ən yaxşı dərk etdirən oruc ibadəti; nəfs canavarını zəbt edən və beləliklə ehtiras və azğınlıqların önünə sərhəd çəkən, həmçinin mərhəmət və şəfqət duyğularının inkişafını təmin edən ruhi intizamdır.

Necə ki, **Rəsulullah** ﷺ:

*"Oruc qalxandır"*,- buyurmuşdur. (Nəsai, Siyam, 43)

Orucun qalxan olması nəfsani arzuları diz çökdürərək nəfsin günahlara olan meylini qırması və beləcə cəhənnəmlə bəndə arasında pərdə olması deməkdir. Bunun üçün də yalnız mədəyə deyil, gözə, qulağa, qəlbə, xüsusi ilə də dilə oruc tutduraraq bütün üzvləri günahlardan qorumaq lazımdır.

Yəni orucun qayələrindən biri də -eynilə namazda olduğu kimi- insanı günah və pislikdən uzaqlaşdırmaq surəti ilə cəhənnəmdən qorumasıdır.

Ayeyi-kərimədə buyurulur:

**"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki,** (bunun vasitəsilə) **siz pis əməllərdən çəkinəsiniz!".** (əl-Bəqərə, 183)

**Yəhya bin Muaz** (q.s) nə gözəl buyurur:

*"Xəstəlik qorxusu ilə yeməkdən pəhriz saxlayan, lakin cəhənnəm qorxusu ilə günahlardan pəhriz saxlamayan adamın halına təəccüb edirəm."*[88]

88. *Təzkirətul-Övliya*, s. 125, Erkam Yayınları.

**Haqq-Təala qəlblərimizə təqva həssaslığı ehsan etsin. Hər birimizi haramlardan çəkinməyin qəlbdəki təzahürü olan “iman şirinliyi”ni daddırdığı bəxtiyar qullarından etsin. İbadətlərlə, saleh əməllərlə, xeyir-həsənatla ona yaxınlaşmağı nəsib etsin.**

**Amin!..**

HAQQ DOSTLARINDAN HİKMƏTLƏR

# Bəyazid Bəstami

RƏHMƏTULLAHİ ALEYH

6

*Hər hansı bir məzarlığı ziyarət edərkən özümüzdən daha kiçik yaşda vəfat etmiş insanların qəbri ilə qarşılaşırıq. Deməli, ölümün yaşı yoxdur. Hər insan ölə biləcək yaşdadır. Beləliklə vədəsi məchul olan əcələ hələ çox qaldığını zənn edərək axirət hazırlığına səhlənkar yanaşmaq qədər böyük qəflət ola bilməz.*

# Bəyazid Bəstami (q.s) -6-

**Bəyazid Bəstami həzrətləri buyurur:**

***"Xalqın Haqqa ən uzaq olanı, sonra edərəm deyib xeyri təxirə salandır".*** [89]

[Ömrü dünya ehtirasları ardınca düşərək hədər edib, uxrəvi məsuliyyətləri, qulluq vəzifələrini, ibadət, itaət və xeyir əməlləri sabaha ertələmək böyük aldanışdır. Çünki sabaha çıxıb-çıxmayacağımız məchuldur. Heç birimizin bu barədə təminatı yoxdur. İnsan üçün hər bir gün sabahı olmayan son gün olmağa namizəddir.

Məzarlığa getdiyimiz zaman yaşca bizdən daha kiçiklərin qəbirlərinin olduğunu görürük. Deməli, ölümün yaşı yoxdur. Hər kəs ölə biləcək yaşdadır. Elə isə əcəlin məchul gününə hələ çox qaldığını zənn edərək axirət hazırlığını gözardı etmək qədər dərin qəflət ola bilməz.

89. Prof. Dr. Süleyman Uludağ, *Bayezid-i Bistami,* sf. 190, TDV Yayınları, Ankara 1994.

Axirətin sonsuzluğu qarşısında dəryadan bir damla hökmündə olmayan həyat beşiklə tabut arasındakı məsafəyə sığmayacaq qədər ülvi bir həqiqətdir. Elə isə "həyat nədir?" sualına cavab olaraq torpağın rütubəti və məzar daşlarının qatı səssizliyi yüksələcəksə, belə bir qəflətlə hədər edilmiş fani həyatdan daha acı nə ola bilər?..

**Həzrət Osman**ın عليه السلام bu xəbərdarlıqları necə də hikmətlidir:

*"Ey Adəm oğlu! Unutma ki, dünyaya gəldiyin gündən bəri ölüm mələyi ardınca gəzir. Bir tərəfdən də sənin boynundan adlayıb başqa birini yaxalayır. Sən dünyada olduğun müddətdə bu belə də davam edəcək. Ancaq bir gün gələcək, başqalarının boynundan adlayıb səni yaxalayacaq. Bu, heç gözləmədiyin bir anda ola bilər. Elə isə daim son nəfəsə hazır ol və çalış ki, qafil ovlanmayasan. Çünki ölüm mələyi əsla səndən qafil deyil".*

*Ey Adəm oğlu! Onu bil ki, əgər sən öz nəfsindən qafil olar və özün üçün hazırlıq etməzsən, əlbəttə ki, başqası sənin yerinə hazırlıq görməyəcək. Allahın hüzuruna mütləq gedəcəyini yaddan çıxarma və ona görə də də nəfsin üçün tədarük görüb ona ruzi topla. Əsla bu işi başqalarına həvalə etmək fikrinə düşmə!"* (Əli əl-Müttəqi, № 42790)

Məhz bu kimi həqiqətlərin şüur və idrakı ilə iman fərasətinə sahib olan əcdadımız qəbiristanlıqları şəhər mərkəzində, xüsusilə də məscidlərin qarşısında tikmişlər ki, tez-tez gələcəyi təfəkkür etsinlər. Beləliklə dünya həyatının faniliyi haqda yəqin hasil olsun və axirəti unutmasınlar. Gəncliklərinə, səhhətlərinə, güc-qüvvələrinə aldanıb özlərini dünyada əbədi sanmasınlar. Boş və faydasız şeylərdən üz çevirsinlər. Daha vacib olan axirət sərmayəsini bir an əvvəl tədarük etməyə tələssinlər.

Çünki yolunda uzun ömür hədər edilən fani və nəfsani cazibələr son nəfəsdə, qəbirdə və axirətdə heç bir işə yaramayacaqdır. Necə ki, beləlari üçün ayeyi-kərimədə belə buyurulur:

"عَامِلَةٌ نَاصِبَةٌ : **Boş yerə zəhmət çəkib yorulublar".** (əl-Ğaşiyə, 3) Yəni axirətsiz bir dünya xəyalı ilə sırf dünyanı abad etmək üçün yorulub axirəti xarabaya çevirən insan oğluna hesab günü dəhşətli peşmançılıqdan başqa heç nə qalmayacaq.

Elə isə fürsət əldən çıxmadan bütün fani nemətləri əbədi səadət sərmayəsinə çevirməyə çalışmalıyıq. **Rəsulullah** ﷺ bu xüsusda biz ümmətinə belə xəbərdarlıq etmişdir:

*"Beş şey gəlmədən əvvəl beş şeyi qənimət bil:*

*Qocalıqdan əvvəl gəncliyini, xəstələnmədən əvvəl* səhhətini, kasıblıqdan əvvəl zənginliyi, məşğul zamanlarından əvvəl boş vaxtlarını və ölümdən əvvəl həyatını!" (Hakim, *Müstədrək*, IV, 341; Buxari, Riqaq, 3; Tirmizi, Zöhd, 25)

Bu həqiqətlərdən xəbərdar olan arif bir zat zamanı layiqli şəkildə dəyərləndirməyimiz üçün belə tövsiyə edir:

*"Hərdən xəstəxanalara gedib xəstələri ziyarət et! Orada əziyyət çəkənlər kimi xəstəliklərə yaxalanmadığını və sahib olduğun sağlamlıq nemətini fikirləşib halına şükür et!*

*Hərdən həbsxanalara gedib oradakı məhkumların min bir iztirabla dolu zindan həyatını fikirləş. Cinayətlərin bir anlıq qəflət və ya dəliliklə işləndiyini, həmçinin məzlum halda həbsə düşüb cəfaya qatlananların da olduğunu, sənin də onlar kimi ola biləcəyini düşün! Allah-Təala səni bu hala düşməkdən qoruduğu üçün Ona şükür et! Oradakılara da dua et!*

*Sonra qəbiristanlıqlara get, oradakı məzar daşlarından hal dili ilə yüksələn səssiz fəryadlara qulaq ver! Ömür nemətini itirəndən sonra peşman olmağın heç bir fayda verməyəcəyini fikirləşərək vaxtının qiymətini bil! Məzarda yatanlara bir fatihə oxu və bundan sonrakı günlərini həmd, şükür, zikr və Allah yolunda səylə dəyərləndir!"*

Deməli, fürsət əldən çıxmadan ibadət, itaət və xeyir əməllər işləmək üçün səy göstərməliyik. Çünki axirət qazancımız üçün fürsət bu fürsət, gün bu gündür. Necə ki, *"Sabah edərəm deyənlər həlak oldu"*, - buyurulmuşdur.

Xeyir əməllərə tələsdiyimiz kimi mənəvi qazanc fürsətlərini əldən çıxarmamaq üçün də ayıq-sayıq olmaq və bəsirətli hərəkət etmək lazımdır. Əks təqdirdə əldən çıxan nemətlərə peşmanlıq fayda verməz.

Əsri-səadətdə baş verən bu hadisə nə qədər ibrətlidir:

**Rəsulullah** ﷺ səhabələrdən bəzisini qəzvəyə göndərmişdi. Onlardan biri gecikdi. Xanımına:

"Rəsulullah ﷺ ilə birlikdə günorta namazını qılıb, onunla görüşüb vidalaşmaq üçün ləngiyirəm. Həm də mənə dua etsin, həmin dua da qiyamətdə mənim üçün şəfaətçi olsun", - dedi.

Rəsuli-Əkrəmlə ﷺ birlikdə namaz qıldıqdan sonra ona salam verdi. Rəsulullah ﷺ:

- *"Bilirsənmi yoldaşların səni nə qədər keçiblər?"* - dedi. Səhabə:

- "Bəli, səhər erkəndən getdikləri məsafə qədər məni keçdilər", - dedi. Bu zaman Rəsulullah ﷺ:

- *"Nəfsimi əlində tutana and olsun ki, onlar fəzilət baxımından səni məşriqlə məğrib arasındakı ən uzaq məsafə qədər keçdilər", - buyurdu.* (Əhməd, III, 438)

Başqa bir rəvayətdə isə belə buyurulur:

*"Yer üzündə olan hər şeyi infaq etsən də, onların erkən çıxmasındakı fəziləti əldə edə bilməzsən".* (Tirmizi, Cümə, 28/527; Əhməd, I, 256)

Görüldüyü kimi bir səhabə yaxşı niyyətlə xidmətdən geri qaldığı halda Həzrət Peyğəmbərin xəbərdarlığına məruz qaldı. Yəni həmin səhabə iki xeyirli işdən o an üçün daha mühüm olanını tərcih etmək xüsusunda xətaya düşdüyünə görə bu nəbəvi xəbərdarlığa məruz qaldı. Elə isə bir də dünyəvi ehtiraslar ardınca, nəfsani zövqlər uğrunda tənbəllik və səhlənkarlıq səbəbi ilə qulluq vəzifələrini və Allah yolunda səy və xidmətləri gecikdirməyin nə qədər böyük mənəvi itkilərə yol açacağını düşünmək lazımdır.

Bu qəbildən "təqaüdə çıxanda həccə gedərəm, hələ çox gəncəm, bir az həyatdan kam alım, sonra tövbə edib namaza başlayaram. Bir az imkanım artsın, sonra infaq edərəm, bu işləri yoluna qoyum, sonra təqva

həyatına yönəlib salehlərdən olaram…" kimi fikirlərlə vaxt itirmək böyük bir xüsrandır.

Ömrünü qəflətlə hədər edənlərin fəryadlarını və irəli sürəcəkləri üzrlərinin heç bir fayda verməyəcəyini bəyan edən bu ayeyi-kərimələrin dəhşətli xəbərdarlığını qəlbimizə silinməz hərflərlə nəqş etməliyik. Haqq-Təala belə buyurur:

**"Birinizin ölümü çatıb: "Ey Rəbbim! Mənə bir az möhlət versəydin, sədəqə verib salehlərdən olardım! – deməmişdən əvvəl sizə verdiyim ruzidən** (Allah yolunda) xərcləyin". (əl-Münafiqun, 10)

**"Onlar orada fəryad edib deyəcəklər: "Ey Rəbbimiz! Bizi buradan çıxart ki, saleh əməllər edək. O əməlləri yox ki** (dünyada) **edirik!"** (Onlara belə deyəcəyik: ) **"Məgər orada sizə öyüd-nəsihət qəbul edəcək kimsənin öyüd-nəsihət qəbul edə biləcəyi (düşünəcək kimsənin düşünəcəyi) qədər ömür vermədikmi?! Hələ sizə** (siz kafirləri Allahın əzabı ilə) **qorxudan peyğəmbər də gəlmişdi. Dadın** (cəhənnəm əzabını)**! Zalımların imdadına çatan olmaz!"** (əl-Fatir, 37)

**Rəsulullah** ﷺ də:

*"Öldükdən sonra peşmançılıq çəkməyən heç kim yoxdur"*, - buyurmuşdu.

- "O nə peşmançılıqdır, ya Rəsulallah?" – deyə soruşdular. Peyğəmbərimiz:

- *"(Ölən adam) Muhsin (ehsan sahibi, əməlisaleh) biridirsə, bu halını daha da artırmadığı üçün, əgər pis insandırsa, pis əməldən vaz keçib özünü islah etmədiyinə peşman olacaqdır"*, - cavabını verdi. (Tirmizi, Zöhd 59/2403)

Dünya həyatında bizə lütf edilən möhlətin qiymətini bilib onu dəyərləndirməyimizin zəruri olduğunu bu hədisi-şərif nə gözəl bəyan edir:

*"Ey insanlar, ölmədən əvvəl Allaha tövbə edin! Sizi məşğul edəcək bəzi məşəqqətlərlə qarşılaşmadan əvvəl saleh əməllərə sarılın! Allahı çox zikr etmək və gizli-açıq bol sədəqə vermək surəti ilə Onun üzərinizdəki haqqını yerinə yetirməyə çalışın ki, ruziyə nail olasınız, yardım görəsiniz və islah ediləsiniz!"* (İbn Macə, İqamə 78)

Xülasə, gənclik, səhhət, zaman, imkan və ömür neməti əldən çıxmadan, bir an əvvəl bu nemətləri haqqa və xeyrə vasitə qılmağa cəhd etməliyik. Uzunluğu məchul olan bir yumaq kimi nə zaman sona çatacağı bilinməyən ömür təqviminin hər səhifəsini uxrəvi qazanc üçün böyük bir fürsət bilib saleh əməllərlə dəyərləndirməliyik.

Unutmayaq ki, hər birimiz dünyaya bir dəfəliyinə üçün gəldik. Həyat imtahanıd

mız bir səfərlikdir. Dünya həyatının təkrarı yoxdur. Düyəvi imtahanlardan keçməsək, bir daha imtahana girə bilirik. Lakin həyat nemətinin nə təkrarı var, nə də əvəzi. Rəbbimiz fərqində olanlardan eyləsin…]

**Bəyazid Bistami həzrətləri buyurur:**

***Dünyanı axirətdən üstün tutan bədbəxt adamın:***

***- Cəhaləti elmindən,***

***- Qəfləti zikrindən,***

***- Günahı savabından çox olar.***

***Axirəti dünyadan üstün tutan saleh insanın isə:***

***- Sükutu danışmasından,***

***- Fəqirliyi zənginliyindən (yəni zöhd və qənaəti ehtiras və tamahından),***

***- Son nəfəs təlaşı sevincindən çox olar…"***[90]

[Dünyanı axirətdən üstün tutmaq fani olanı əbədidən, damlanı dəryadan, zir-zibili brilyantdan qiymətli görmək kimi həzin bir axmaqlıqdır. **Bəyazid Bəstami həzrətləri**nin buyurduğu kimi bu axmaqlığa düçar olanların ən bariz vəsflərindən biri **"cəhalət"**dir.

90. Abbas, *Ebu Yezid,* s. 86; Sehlegi, *en-Nur*, s. 125.

Necə ki, Quran və Sünnənin rəhbərliyi altında tərbiyə edilməyən xam nəfslər üçün Haqq-Təala:

"ظَلُومًا جَهُولًا : **çox zalım, çox cahil"** ifadəsi işlədir. (Bax. əl-Əhzab, 72)

Bu cəhalət dünyəvi elmlərdən xəbərdar olmamaq deyildir. Əsl cəhalət Haqq-Təaladan bixəbər olmaqdır. Onun lütfü ilə var olduğu və Onun nemətləri ilə təchiz edildiyi halda bütün bu nemətləri bəxş edən uca qüdrəti tanımamaqdır.

Həmçinin ən mühüm cəhalət **Rəsulullahın** ﷺ təbliğindən uzaq qalmaqdır. Necə ki, vəhyin rəhbərliyindən uzaqlaşan cəmiyyətlərə "cahiliyyə toplumu" deyilir. Belə cəmiyyətlər də zahiri elmlərdə hər nə qədər inkişaf etsələr də axirətsiz dünya anlayışına qapılaraq şüursuz halda ömür sürərlər.

**Bəyazid Bəstami həzrətləri**nin buyurduğu kimi, dünyanı axirətdən üstün tutanların digər vəsfi olan "qəflət" isə kainatda mikrodan makroya qədər bütün varlıqlarda sərgilənən ilahi qüdrət və əzəmət təcəllilərinə qarşı kor olmaqdır. Bütün məxluqat hiss edən bir qəlbə Xaliqini xatırladarkən, özünü təsadüf nəticəsində var olmuş və başıboş buraxılmış zənn etməkdir. Halbuki ayeyi-kərimədə belə buyurulur:

**“Yoxsa sizi əbəs yerə yaratdığımızı və** (qiyamət günü dirilib haqq-hesab üçün) **hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?”** (əl-Muminun, 115)

Həmçinin qəflət, Haqq-Təalanın Quran, insan və kainatda sərgilədiyi ilahi əzəmət təcəllilərini ağılsız varlıqlar kimi qaşqabaqlı çöhrə və daşlaşmış qəlblə seyr etməkdir. Bu təcəllilərin hikmət və ibrətlərini qəlb gözü ilə oxuya bilməməkdir.

**Mövlana həzrətləri** bu hala düçar olan qafillərin çaşqınlığını bir təşbehində belə izah edir:

*“Bir öküz Bağdada gəlir və şəhəri o baş- bu baş gəzir. (Bir çox mədəniyyətə ev sahibliyi edən, mərkəzindən axan Dəclə çayı ilə ilahi sənətin müstəsna sərgisi olan) Bağdad şəhərində xoşagəlimli nemət kimi yalnız qarpız-yemiş qabıqlarını görür… Zatən öküzlə eşşəyin görə biləcəyi ya yola tökülən saman, yaxud da yol kənarında bitən otdur”.*

Nəticədə dünyaya aldanaraq axirəti unutmaq bayağı əməllərlə məşğul olub səadəti səfalət bazarında axtarmaqdan fərqlənmir. Bu qəflətdən qurtulmağın çarəsi isə **“zikr”**dir. Zikr qəlbin Allah ilə olmasıdır. Haqq-Təala bu ayeyi-kərimədə qullarının hər an zikr halında olmasını istəyir:

**"O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər** (və deyərlər): **"Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından** (Özün) **qoru!"** (Ali-İmran, 191)

Mömin, həyatının hər bir mərhələsini zikrin feyzi ilə yaşamalıdır ki, qəflət, cəhalət və günahlardan qoruna bilsin, beləliklə də Haqq-Təalanın dostluq iqliminə girə bilsin.

Dünyanı axirətdən üstün tutmaq qəlbi həssaslıqları zədələyir. Bu səbəblə qul günahlara onların vəbalının ağırlığını hiss etmədən asanlıqla meyil edər. Nəinki günahların verdiyi daxili əzab hiss edər, əksinə, işlənən günahlar ona xoş musiqi kimi gələr. Çünki insan hadisələri və baş verənləri qəlbi vəziyyətinə görə idrak edər.

**Bəyazid Bəstami  həzrətləri**nin buyurduğu kimi axirəti dünyadan üstün tutan saleh insanın vəsflərinin başında isə "sükutunun danışmasından çox olması" gəlir

Necə ki, **Rəsulullah** ﷺ də:

*"Allaha və axirət gününə iman gətirən kəs ya xeyir söyləsin, yaxud da sussun"*, - buyurmuşdur. (Buxari, Ədəb 31, 85; Müslim, İman, 74)

Həmçinin axirəti dünyadan üstün tutan saleh insanın qənaəti tamah və ehtirasından çoxdur. Ən böyük xoşbəxtlik və səadət Allah-Təalanın verdiklərinə qane ola bilməkdir.

Mömin daim "Əlbəttə ki, Rəbbimin mənim üçün təqdir etdiyi mənim özüm üçün istədiyimdən daha xeyirlidir" fikrində olmalıdır. Çünki Haqq-Təala mərhəmət edənlərin ən mərhəmətlisidir. O, bəndələrinə zülm etməz. Lakin bir çox insan səfalətini səadət zənn edərək özünü əzaba sürükləyər, beləliklə də nəfsinə zülm edər. Yəni özü üçün nəyin xeyirli olduğunu hər zaman düzgün müəyyənləşdirə bilməz. Bəzən xeyir zənn edərək şəri istəyər. Qeybi Allahdan başqa heç kim bilmədiyi üçün Onun təqdirinə riza göstərib təslim olmaq ən doğru yoldur.

Məsələn, az bir dünya neməti təqdir edilən mömin bəlkə də bundan artığına sahib olsaydı, qürura qapılıb azğınlığa sürüklənə biləcəyini fikirləşib həmd etməlidir. Bundan azına sahib olsaydı, bəlkə də üsyana düşəcəyini fikirləşib şükür etməlidir. Qəhrin də, lütfün də bir imtahan olduğunu idrak edib qəlb hüzurunu qorumalıdır.

Möhtərəm ustadımız **Musa Əfəndi** belə buyurardı:

*“Bu yolda hüzura nail olmaq yalnız təslimiyyətlə mümkündür. Kimisi övladından, kimisi malından, kimisi də başqa cəhətdən müsibətə düşə bilər. Mömin (imtahan gərəyi) dünyada tamamən rahatlıq tapa bilməz. Allah-Təala daim məhzun və qəlbiqırıq insanların yanındadır. Səbirsiz olanlarsa hər şeydən hüzursuz olduqları kimi ətraflarındakılara da narahatçılıq verərlər. Belələrinin nafilə ibadətləri çox olsa da mənəviyyatdan bir o qədər hissə ala bilməzlər”.*[91]

Həmçinin **Bəyazid Bəstami həzrətləri**nin buyurduğu kimi, axirəti dünyadan üstün tutan saleh möminin son nəfəs təlaşı sevincindən çox olar. Nə qədər ibadət, qulluq və xidmət etsə də, bunların lazım, lakin kafi olmadığı düşüncəsi ilə saleh əməllərə can atar. Son nəfəsini iman ilə verə bilmək üçün daima qorxu və ümid duyğuları arasında Rəbbinin rəhmət və məğfirətinə sığınar. Çünki kamil bir mömin duaları qədər ibadət və saleh əməllərinin də qəbula möhtac olduğunu bilir.

Xülasə, axirəti dünyadan üstün tutan saleh bir qul **Rəsulullahın** ﷺ həyatın eniş-yoxuşları və acı-şirin imtahanları qarşısında ifadə etdiyi “Allahım, əsl həyat sadəcə

91. Zahide Topçu, “Musa Efendi İle Bursa Seyahati”, *Şebnem Dergisi,* Sayı: 9, s. 7, 2004.

axirət həyatıdır"[92] həqiqətinin idrakı içində yaşayar.

Əshabi-kiram da bu şüurla qəlblərinin istiqamətini əbədiyyət yurduna çevirən nümunəvi şəxslərdir. Onlar fani həyatlarını, sabah gedəcəkləri yerin qəbir olacağı həqiqətinə görə tənzimləmişlər. Onlar dünya və axirət arasında seçim etmək məcburiyyətində qaldıqları zaman, göstərdikləri iman fərasəti verəcəyimiz misalda öz əksini necə də gözəl tapır:

Bir gün ənsardan olan səhabələr öz aralarında:

"Daha nə vaxta kimi bu quyulardan su çəkməyə davam edəcəyik? **Rəsulullahın** ﷺ yanına getsək, bizim üçün Allah-Təalaya dua etsə, Haqq-Təala da bizim üçün bu dağlardan bulaq qaynatsa necə də gözəl olar" - dedilər. Bu fikirlə Peyğəmbərimizin hüzuruna gəldilər. Rəsulullah ﷺ onları gördüyü zaman:

*"– Xoş gəldiniz! Bir ehtiyacınızmı var?"* -buyurdu. Onlar da:

"– Bəli, ya Rəsulallah!" -dedilər.

Rəsulullah ﷺ:

92. Bax. Buxari, Riqaq, 1; Vaqidi, II, 824.

*"– Bu gün məndən nə istəsəniz, mütləq sizə veriləcək. Mən Allah-Təaladan nə istəmişəmsə mütləq onu mənə vermişdir"*, - buyurdu.

Səhabələr ələdüşməz bir fürsət yaxaladıqlarını anlayıb bir-birilərinə baxdılar və öz aralarında:

"Olmaya, dünyanı istəyirsiniz! (Nə qədər bəsit bir şeyin ardınca düşmüsünüz!) Əsas olan axirəti istəyin!" – dedilər. Sonra da:

"Ya Rəsulallah, Allah-Təalaya bizi bağışlaması üçün dua edin!" – dedilər. Allah Rəsulu ﷺ:

*"Allahım! Ənsarı, ənsarın uşaqlarını, ənsarın uşaqlarının uşaqlarını məğfirət eylə!"* – deyə dua etdi.

Ənsarlar Allah Rəsulundan bu duasını ənsar olmayanlardan aldıqları zövcə və gəlinlərindən dünyaya gələn övladlarına, hətta azad etdikləri kölələrinə qədər genişləndirməsini istədilər. Rəsulullah onların bu tələbinə də müsbət cavab verdi. (Bax. Əhməd, III, 213, 139; Hakim, IV, 90/6975; Heysəmi, X, 40)

Bir möminin könül üfüqü məhz belə olmalıdır. Yəni əshabi-kiram kimi, ilk növbədə fani dünyanı deyil, baqi olan axirəti seçməlidir. Allah üçün dünyada bəzi əziyyətlərə qatlanıb axirət səadətini hədəf halına gətir-

məlidir. Səhabələr kimi yüksək məsuliyyət duyğusu ilə yalnız özlərini deyil, nəsillərinin və Muhamməd ümmətinin də qurtuluşunu istəyib bu xüsusda fədakarlıqla səy göstərməlidir.

Rəhmətə vəsilə olması ümidi ilə sözlərimizə vəfatının on altıncı ildönümündə mərhum atam **Musa Əfəndi**nin bu ifadələri ilə son veririk:

*"Dünyaya gələn hər bir varlıq vaxtı, saatı, məhdud nəfəsləri tamamlandıqdan sonra əbədi həyata keçəcək. Nə xoşbəxtdir o kəs ki, həyatını Haqq yolunda fani etmiş və üz ağı ilə axirətə köçmüşdür…"*[93]]

**Allah-Təala lütf-kərəmi ilə hər birimizə rizası yolunda fani edilən bərəkətli bir ömür, əbədi səadət müjdələri ilə gələn son nəfəs və cəmalullahı tamaşa bayramı ilə taclanan bir cənnət həyatı ehsan etsin.**

**Amin!..**

93. "Vasiyetlerinden…", *Altınoluk,* sayı: 162, s. 20, Ağustos 1999.



# MÜNDƏRİCAT


ÖN SÖZ ........ 5

BƏYAZİD BƏSTAMİ (q.s) ........ 13

Gəncliyi ........ 14

Sünneyi-Səniyyəyə bağlılığı ........ 20

Nəfslə mücahidəsi ........ 21

Allah qorxusu və təqva həyatı ........ 23

Zöhd həyatı ........ 25

Xaliqin nəzəri ilə məxluqata baxış tərzi ........ 26

Əsil kəramət istiqamətdir ........ 29

Mərifətullah ........ 30

Məhəbbətullah ........ 31

On əsas ........ 32

Vəfatı ........ 34

HAQQ DOSTLARINDAN HİKMƏTLƏR ........ 35

*Bəyazid Bəstami (q.s)* -1 ........ 35

*Bəyazid Bəstami (q.s)* -2 ........ 53

*Bəyazid Bəstami (q.s)* -3 ........ 73

*Bəyazid Bəstami (q.s)* -4 ........ 91

*Bəyazid Bəstami (q.s)* -5 ............................................. 109

*Bəyazid Bəstami (q.s)* -6 ............................................. 128



